# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

26 may 2026-cı il, çərşənbə axşamı
№ 091 (7158)
Qiymәti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Prezident hökumətə tapşırıq verdi - kənd təsərrüfatının inkişafına dair yeni Dövlət Proqramı hazırlansın

## İlham Əliyev: Əminəm ki, bu proqram icra ediləndən sonra bizim əsas hədəflərimiz tam yerinə yetiriləcəkdir



Bax səh. 2

# WUF13: Azərbaycanın multikulturalizmə verdiyi daha bir mühüm töhfə

Bax səh. 3

## WUF13 siyasi uğurlarımızın növbəti təsdiqidir

Son illərdə Azərbaycanın beynəlxalq nüfuzu və qlobal siyasətdə rolu ardıcıl şəkildə artmaqdadır. Bakı regional təhlükəsizliyin möhkəmləndirilməsi, enerji və nəqliyyat kommunikasiyalarının şaxələndirilməsi, Şərqlə Qərb arasında strateji körpü rolunun gücləndirilməsi istiqamətində həyata keçirdiyi uğurlu siyasətlə beynəlxalq münasibətlər sistemində mühüm mövqe qazanıb. Azərbaycanın təşəbbüsü ilə reallaşan irimiqyaslı layihələr və beynəlxalq tədbirlər ölkənin diplomatik imkanlarını, təşkilatçılıq qabiliyyətini və etibarlı tərəfdaş imicini daha da möhkəmləndirib.

COP29 kimi qlobal əhəmiyyətli tədbirin uğurla təşkilindən sonra Bakının Ümumdünya Şəhərsalma Forumuna - WUF13-ə ev sahibliyi etməsi Azərbaycanın beynəlxalq nüfuzunun daha bir göstəricisinə çevrildi. 176 ölkədən 60 minədək iştirakçının qatıldığı forum bu günədək keçirilmiş ən genişmiqyaslı Ümumdünya Şəhərsalma Forumu kimi tarixə düşdü. Bu fakt Azərbaycanın artıq yalnız regional deyil, həm də qlobal miqyasda siyasi, iqtisadi və humanitar məsələlərin müzakirə olunduğu mühüm platformaya çevrildiyini göstərir. Bakının belə mötəbər beynəlxalq tədbirləri yüksək səviyyədə təşkil etməsi ölkənin müasir infrastrukturunu, təhlükəsiz mühitini və diplomatik potensialını nümayiş etdirməklə yanaşı, Azərbaycanın beynəlxalq əməkdaşlıq və qlobal dialoq məkanı kimi nüfuzunu təsdiqləyir. WUF13 çərçivəsində müzakirə olunan urbanizasiya, dayanıqlı şəhər...

Bax səh. 4




Bax səh. 4

## WUF13: Azərbaycanın yüksək qiymətə layiq təşkilatçılığı

Bax səh. 4

## 103 ölkədən 569 QHT...

Bax səh. 5

## "Yaşıl Enerji Dəhlizi" genişlənir...

Bax səh. 6

## Azərbaycan-Özbəkistan iqtisadi əlaqələri genişlənir

Bax səh. 6

## 15 il Qoşulmama Hərəkatının üzvü kimi...

Mayın 26-da Azərbaycanın Qoşulmama Hərəkatına (QH) üzv qəbul edilməsindən 15 il ötür. Öz xarici siyasətində heç bir hərbi alyansa qoşulmamaq istiqamətini seçmiş Azərbaycan 26 may 2011-ci il tarixində İndoneziyanın Bali adasında Hərəkata üzv olan dövlətlərin yekdil dəstəyini əldə edərək, QH-yə tam hüquqlu üzv qəbul olunub.

Ölkəmiz üzv olduqdan sonra təşkilatın işində fəal iştirak edib. Bunun nəticəsində də qısa müddət sonra Azərbaycan Qoşulmama Hərəkatına sədr seçilib. Belə ki, Bakı şəhəri  25-26 oktyabr 2019-cu il tarixində Hərəkatın 18-ci dövlət və hökumət başçılarının Zirvə Görüşünə ev sahibliyi edib. Tədbirdə 120 BMT üzv dövlətinin yüksək səviyyəli nümayəndələri və 42 beynəlxalq təşkilat nümayəndələri iştirak edib. Bakı Sammiti ilə Hərəkata Sədrlik 2019-2022-ci illər üzrə Azərbaycan Respublikasına keçib. Azərbaycanın sədrliyi dövründə gördüyü işlərə, irəli sürdüyü təşəbbüslərə və təsisatın fəaliyyətinin genişləndirilməsi, beynəlxalq aləmdə nüfuzunun artması istiqamətində atdığı addımlara görə ölkəmizə etimadın göstəricisi kimi Hərəkata sədrliyimiz daha bir il uzadıldı.

Məlumdur ki, Qoşulmama Hərəkatı dünyada BMT-dən sonra ən böyük beynəlxalq təsisatdır. Azərbaycan Prezidenti İlham Əliyevin siyasəti sayəsində ölkəmiz bu təsisata uğurla rəhbərlik etməklə onun beynəlxalq aləmdə nüfuzunu və rolunu gücləndirib, böyük nailiyyətlərə imza atıb. Dövlətimizin başçısının Qoşulmama Hərəkatının...

Bax səh. 5




Bax səh. 7




Bax səh. 7

# Prezident hökumətə tapşırıq verdi - kənd təsərrüfatının inkişafına dair yeni Dövlət Proqramı hazırlansın







Mayın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirə keçirilib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı müşavirədə nitq söyləyib.

## İlham Əliyev: Əminəm ki, bu proqram icra ediləndən sonra bizim əsas hədəflərimiz tam yerinə yetiriləcəkdir

### Prezident İlham Əliyevin nitqi

- Bugünkü müşavirədə biz kənd təsərrüfatının inkişafını müzakirə edəcəyik. Bildiyiniz kimi, bu sahəyə daim çox böyük diqqət göstərilir. Hələ ilk dəfə prezident vəzifəsinə seçiləndən sonra 2004-cü ildə ilk təşəbbüslərimdən biri regional inkişaf proqramı idi və onun da tərkib hissəsi kənd təsərrüfatının inkişafı idi.

2004-cü ilin əvvəlində qəbul edilmiş birinci beşillik proqram bir çox məsələlərin həll edilməsinə kömək göstərdi və biz gördük ki, bu proqramın davamı olmalıdır. Ondan sonra bir neçə beşillik regional inkişaf proqramı qəbul edildi. Bunun nəticəsində bütün regionlar canlandı, regionlarda məşğulluq artdı və böyük infrastruktur layihələri icra edildi. Bu gün bu layihələr olmadan Azərbaycanın ümumi inkişafını təsəvvür etmək mümkün deyil. O cümlədən kənd təsərrüfatının inkişafı üçün bu proqramda nəzərdə tutulmuş infrastruktur layihələri həlledici rol oynamışdı. Çünki o vaxt bölgələrdə demək olar ki, qaz təchizatı yox idi. Elektrik təchizatı ilə nəinki regionlarda, Bakıda böyük problemlər yaşanırdı, hətta böyük fasilələr olurdu. Avtomobil yolları yararsız vəziyyətdə idi. Su ilə təchizat demək olar ki, tamamilə tükənmişdi. Yəni kəndlərin dirçəldilməsi və kəndlərdə yaşayan insanların yaşayış səviyyəsini yaxşılaşdırmaq üçün bu proqramın həlledici rolu olmuşdu. O ildən bu yana bölgələrdə genişmiqyaslı infrastruktur layihələri icra edildi.

Əgər biz azad edilmiş torpaqları istisna etsək, bu gün ölkə üzrə qazlaşmanın səviyyəsi 96 faizdir. Elektrik təchizatı ilə heç bir yerdə heç bir problem yoxdur, nəinki özümüzü təmin edirik, hətta bizim böyük ixrac potensialımız yaradılmışdır. Bir çox magistral, şəhərlərarası və kənd yolları inşa edilmişdir. Böyük su anbarları inşa edilmişdir, ilk növbədə, Taxtakörpü, Şəmkirçay, Göytəpə və digərləri. Kanallar yenidən qurulmuşdur və bu proses davam etdirilir. Bir sözlə, bölgələrin və kənd təsərrüfatının inkişafı çox sürətlə getmişdir. Bunun nəticəsində bir çox istiqamətlər üzrə kənd təsərrüfatı məhsullarının istehsalında böyük artım olmuşdur. Onu da bildirməliyəm ki, bu illər ərzində bir neçə dövlət proqramı qəbul edilmişdir, üzümçülük, pambıqçılıq, fındıqçılıq, sitrusçuluq, digər istiqamətlər üzrə və bu sahələrə böyük təkan verilmişdir.

Kənd təsərrüfatının inkişafı üçün subsidiyaların böyük əhəmiyyəti var. Onu da bildirməliyəm ki, Azərbaycan dünyada nadir ölkələrdəndir ki, genişmiqyaslı və çoxçeşidli subsidiya mexanizmlərini tətbiq edir. Düzdür, burada da təkmilləşmə üçün imkanlar var və bu edilməlidir. Bu barədə də danışılacaq. Müxtəlif güzəştlər verilir, o cümlədən gübrə, yanacaq güzəştləri. Deyə bilərəm ki, bu da dünyada nadir sayda olan ölkələrdə tətbiq edilir. Fermerlərə metodik tövsiyələr verilir və hər cür dəstək göstərilir, o cümlədən güzəştli kreditlərin verilməsi. Bu gün də dövlət xətti ilə həyata keçirilən bir çox layihələr təbii ki, kənd təsərrüfatının inkişafına böyük təkan vermişdir. Məsələn, əgər pambıqçılığı götürsək, vaxtilə 70-80-ci illərdə pambıq istehsalı Azərbaycanda ildən-ilə artırdı, amma sonra müəyyən səbəblərə görə faktiki olaraq bu sahə əldən gedirdi. Həm məhsuldarlıq çox aşağı səviyyədə idi, təqribən hektardan maksimum bir ton, köhnə dillə desək 10 sentner. Azərbaycanda pambıq istehsalı 20 min tona düşmüşdü. Görülmüş tədbirlər, ildən-ilə aparılan islahatlar nəticəsində bu gün həm məhsuldarlıq, həm də istehsal artıb. Bu gün son nəticələrə görə 360 min tondan çox pambıq istehsal edilmişdi və pambıqçılıqda ixtisaslaşmış rayonlarda bunun kənddə yaşayan insanlar üçün çox böyük xeyri olmuşdur.

Baramaçılıq faktiki olaraq əldən getmişdi. Görülmüş tədbirlər və dövlət dəstəyi nəticəsində biz baramaçılığı da bərpa etdik. Bununla bağlı olan ipəkçilik də inkişaf etməyə başlamışdı. Belə misallar çoxdur, yəni çox vaxt itirmək istəmirəm. Sadəcə olaraq, bildirməliyəm ki, bizim bir çox istiqamətlər üzrə nəzərdə tutduğumuz vəzifələr icra edildi.

Ancaq buna baxmayaraq, son vaxtlar kənd təsərrüfatı istehsalında dinamika məni qane etmir. Bir müddət bundan əvvəl Prezident Administrasiyasına, Hökumətə göstəriş verildi ki, kənd təsərrüfatının inkişafına dair yeni Dövlət Proqramı hazırlansın, qəbul edilsin, hərtərəfli, əhatəli olsun. Həm dövlət investisiyaları, həm özəl sektor tərəfindən cəlb ediləcək investisiyaları özündə ehtiva etməlidir. Proqram çox konkret və qısamüddətli olmalıdır. Bu gün müzakirə edəcəyimiz məsələlər bu proqramın qəbul edilməsi və icrası ilə bağlı olacaq. Mən əminəm ki, bu proqram icra ediləndən sonra bizim əsas hədəflərimiz tam yerinə yetiriləcəkdir.

Bu gün dünyada gedən meyillər kənd təsərrüfatının istehsalına da mənfi təsir göstərir. Müharibələr, münaqişələr, nəqliyyat zəncirlərinin qırılması, enerji sektorundakı böhran, yanacaqla bağlı olan müəyyən çətinliklər bir çox ənənəvi istehsalçıları çətin vəziyyətə qoymuşdur. Bunu nəzərə alaraq, əlbəttə ki, hər bir ölkə öz ərzaq təhlükəsizliyi haqqında düşünməlidir və konkret addımlar atmalıdır.

İkinci vacib amil, - bu yaxınlarda Bakıda keçirilmiş Ümumdünya Şəhərsalma Forumunun müzakirələrində də bu öz əksini tapmışdır, - genişmiqyaslı urbanizasiya, yəni kəndlərdən şəhərlərə olan axın. Bu, təkcə ölkəmiz üçün deyil, bütün ölkələr üçün xas olan mənfi meyildir. Ancaq bəzi ölkələr, sadəcə olaraq, bu məsələnin həlli üçün imkan tapa bilmir, yaxud da ki, düzgün strategiya işləyə bilmirlər. Biz isə elə etməliyik ki, kəndlərdən şəhərlərə yox, şəhərlərdən kəndlərə qayıdış prosesi başlasın. Bunun üçün də əlbəttə ki, kəndlə şəhər arasındakı istənilən istiqamətlər üzrə fərqlər azaldılmalıdır. Qeyd etdiyim Regional İnkişaf Proqramının və proqramlarının, - dediyim kimi, bir neçə proqram qəbul edilmişdir, - məqsədi də bu idi ki, bölgələrdə elə şərait yaradılmalıdır ki, insanlar orada yaşasınlar, qalsınlar, öz dədə-baba torpaqlarında çalışsınlar, ənənəvi fəaliyyətlə məşğul olsunlar, əkin, biçin, turizm imkanları. Yəni orada xidmət sektoru da yüksək səviyyədə olmalıdır. Onu da bildirməliyəm ki, biz Regional İnkişaf proqramlarını icra etdikcə sosial infrastruktur layihələrini də uğurla icra etmişik. Bizim bütün rayon mərkəzlərində, şəhərlərdə müasir xəstəxanalar var, məktəb tikintisi geniş vüsət almışdır. Düzdür, hələ yararsız vəziyyətdə məktəblər var, amma onların sayı ildən-ilə azalır. Bizim 4 mindən çox məktəbimiz var, bəlkə də bir az az, bir az çox. Onların təqribən deyə bilərəm ki, 80-85, bəlkə də 90 faizi təmir edilib, nə qədər məktəb tikilib. Ona görə bölgələrdə məşğulluğu artırmaq və insanları torpağa daha bağlı etmək üçün biz kənd təsərrüfatının inkişafına yeni təkan verməliyik.

Yenə də deyirəm, qəbul edilmiş proqramlar və qərarlar böyük dönüşə səbəb olub. Ancaq son bir neçə il ərzində kənd təsərrüfatının inkişafında müşahidə edilən durğunluq, əlbəttə ki, bizi düşündürür və bu məqsədlə Dövlət Proqramı hazırlanıb və qəbul ediləcək. Bununla əlaqədar bəzi rəqəmləri səsləndirmək istərdim. Bu, xüsusilə özəl sektora göndərilən siqnal və mesaj olacaq. Çünki dövlət qurumları bu rəqəmləri bilirlər. Özəl sektor nümayəndələrinin də Dövlət Proqramının icrasında xüsusi rolu olmalıdır. Burada biznes nümayəndələrinin, əlbəttə ki, məsuliyyəti ön planda olmalıdır. Öz ölkələrinə olan bağlılıq və sərmayə qoyuluşu üçün daha münbit şərait olmalıdır. Əlbəttə ki, biz müxtəlif mexanizmlərdən də istifadə edəcəyik. Həm güzəştli kreditlər, həm digər alətlərdən istifadə etməliyik ki, Azərbaycan sahibkarlarının kənd təsərrüfatının inkişafına sərmayə qoymasına daha böyük həcmdə nail olaq. Eyni zamanda, biz xarici investorları da həm məlumatlandırmalıyıq, həm də təşviq etməliyik. Çünki bu gün bizim beynəlxalq əlaqələrimiz çox genişdir. Azərbaycanla əməkdaşlıq etmək istəyən ölkələrin sayı ildən-ilə artır. Bizim dünya miqyasında çox yüksək reputasiyamız var, çox müsbət imicimiz var. Azərbaycan artıq dünyada orta gücə malik olan dövlət kimi tanınır və bir çox ölkələrin şirkətləri müxtəlif sahələrdə bizimlə əməkdaşlıq etmək istəyirlər. Biz, əlbəttə ki, bütün şirkətlərə, o cümlədən xarici investorlara qanun çərçivəsində lazımi şərait yaradırıq. Ancaq, eyni zamanda, biz xarici şirkətləri bizə lazım olan sahələrə cəlb etməliyik. Ona görə burada səsləndirəcəyim rəqəmlər həm yerli, həm xarici investorlara bir mesajdır.

Beləliklə, bizim istehsalımızla bağlı özümüzü təminetmə əmsalı və bəzi rəqəmlər səsləndiriləcək. Buğda istehsalı. Biz cəmi 55 faiz səviyyəsində özümüzü buğda ilə təmin edirik və əfsuslar olsun ki, bu əmsal artmır. Biz elə yerində sayırıq. Neçə ildir ki, bizdə elə bu səviyyədə buğda istehsal olunur, baxmayaraq çox böyük təkan verilmişdir, bir çox aqroparklar yaradılmışdır. Onu da bildirməliyəm ki, aqroparkların yaradılması kənd təsərrüfatının inkişafında çox böyük rol oynamışdır. Buna baxmayaraq, buğda istehsalı və onun özünü təminetmə əmsalı bizdə artmır. Daxili istehsal 1 milyon 573 min ton, idxal 1 milyon 267 min ton. Bax, bu idxalı biz azaltmalıyıq. Təbii ki, bizim coğrafiyamızı nəzərə alaraq, əkin sahələrini nəzərə alaraq, digər kənd təsərrüfatı məhsullarının yetişdirilməsinin zəruriliyini nəzərə alaraq, biz hədəf qoymamalıyıq ki, 100 faiz özümüzü ərzaq buğdası ilə təmin edək. Ancaq hər halda 55 faiz qəbuledilməz rəqəmdir və bu, mütləq artmalıdır.

Digər dənlilər üzrə vəziyyət prinsip etibarilə müsbətdir, özümüzü 95 faiz təmin edirik və idxal da çox cüzidir. Dənli paxlalar. Daxili istehsal 23 min ton, idxal 15 min ton. Yəni özümüzü təminetmə indeksi 63 faizdir. Kartof. Özümüzü 91 faiz təmin edirik, 160 min ton idxal edirik. Ancaq onu da bildirməliyəm ki, 71 min ton da ixrac edirik. Ona görə burada, yəni kəsir o qədər də böyük deyil. Kartof istehsalının artırılması üçün də imkanlar var və biz idxalı tamamilə aradan götürməliyik və həm özümüzü təmin etməliyik, eyni zamanda, daha böyük həcmdə ixrac etməliyik.

Tərəvəz, bostan məhsulları, meyvə, giləmeyvə. Burada vəziyyət müsbətdir. Özümüzü tərəvəz üzrə 107 faiz təmin edirik və 214 min ton ixrac edirik. Daxili istehsal isə 1 milyon 770 min tondur. Bostan məhsulları istehsalı 460 min ton, idxal demək olar ki, yoxdur. İxrac 18 min ton, 104 faiz. Meyvə, giləmeyvə. 140 faiz təminat, istehsal 1 milyon 400 min ton. Təbii ki, idxal da var. Çünki müxtəlif meyvələr var ki, onlar idxal olunur, bizdə yetişmir. Amma ixrac da kifayət qədər böyükdür, təqribən 600 min tona yaxın. Mən qeyd etdim ki, biz fındıqçılıq üzrə Dövlət Proqramı qəbul etdik. Ondan sonra fındıq bağları geniş vüsət almışdır. Bu gün biz qoz-fındıq istiqaməti üzrə 84 min ton məhsul yetişdiririk, 30 min ton da ixrac edirik. Yəni bu istiqamət üzrə biz dünyada 3-4-cü yerdə qərarlaşmışıq. Üzüm istehsalı. Özümüzü təminetmə əmsalı 92 faiz, istehsal 211 min ton, idxal 28 min ton, ixrac da var. İxrac da 10 min ton.

Mal əti. Özümüzü 84 faiz təmin edirik, 30 min ton idxal edilir, 150 min ton daxili istehsaldır. Quş əti. 82 faiz, 147 min ton istehsal, 32 min ton idxaldır. Qoyun-keçi əti. 94 faiz, istehsal 88, idxal 5 min ton. Yumurta. 2 milyard 340 min ədəd istehsal olunur, idxal yoxdur, ehtiyac yoxdur. İxrac isə 90 milyon ədəddir. Balıq və balıq məhsulları. 81 faiz təminatdır, 23 min ton idxaldır, ixrac 7 min ton. Bitki yağları. Özümüzü 52 faiz təmin edirik. Kərə yağı. 62 faiz, istehsal 26 min ton, idxal 20 min ton, ixrac 4 min ton. Çay. 86 faiz, istehsal 11 min ton, idxal 2,5 min ton, ixrac min tona yaxın. Duz. Özümüzü təmin edirik, ixrac edirik 20 min ton, daxili istehsal 80 min ton. Un. 95 faiz, daxili istehsal 1 milyon 364 min ton, idxal 95 min ton, ixrac 28 min ton. Makaron məmulatları. Daxili istehsal 34 min ton, idxal 18 min ton, ixrac 14 min ton, ümumi təminat 89 faiz. Şəkər. Özümüzü 102 faiz təmin edirik və 96 min ton ixracımız var. Bu rəqəmləri mən qeyd etdiyim kimi, investorlar üçün səsləndirirəm və onları dəvət edirəm ki, bizdə bu gün idxal olunan məhsulların istehsalına onlar töhfə versinlər.

Bəzi vəzifələrlə əlaqədar aşağıdakıları deyə bilərəm, ərzaq təhlükəsizliyi ilə əlaqədar artıq bildirildi. Burada təkcə müharibələr və nəqliyyat zəncirlərinin qırılması deyil, iqlim dəyişikliyi də rol oynayır. Bütün bunları biz də müşahidə edirik. May ayında Bakıda hər halda belə yağışın yağmasını mən xatırlamıram. Məndən yaşlı olan insanlar da yəqin ki, xatırlamır. Artıq bu, əfsuslar olsun ki, bəzən fəsadlar törədir. Amma digər tərəfdən, bizim su ehtiyatlarımızı da böyük dərəcədə artırır və bu gün anbarlarda yığılan su bizə imkan verəcək ki, kənd təsərrüfatı üçün bu il su problemi olmasın.

Torpaqlardan səmərəli istifadə məsələsi. Burada məqsəd məhsuldarlığı maksimum artırmaq və torpaqların dəqiq analizini aparmaqdır ki, hansı ərazidə hansı torpaq sahəsində hansı məhsulun yetişdirilməsi daha məqsədəuyğun ola bilər. Burada, əlbəttə ki, rayonlaşma məsələləri çox önəmlidir. Amma bilirəm ki, bəzi hallarda bir rayonda fərqli torpaq sahələrində torpağın keyfiyyəti də fərqlidir. Ona görə demək ki, filan rayonda ancaq bu məhsul yetişdirilsin, başqa məhsul yetişdirilməsin, düzgün olmaz. Təbii ki, hər bir sahə üzrə dəqiq analiz aparılarkən onun elektron versiyası, müxtəlif dəqiqləşdirmə üsulları, yeni texnologiyalardan istifadə edilməlidir, o cümlədən süni intellekt, peyk imkanları, yerlərdə aparılan tədqiqat. Ölkə ərazisi o qədər də böyük deyil. Ona görə bunu etmək çətin olmayacaq. Müəyyən işlər görülüb. Ancaq hər bir əkin üçün yararlı torpaq sahəsinin, necə deyərlər, öz pasportu olmalıdır. Orada hansı məhsul yetişdirilərsə fermer daha çox qazanc götürəcək, bu, birincisi. İkincisi, bizim ümumi kənd təsərrüfatının inkişafı və ixracı strategiyamızın əsasında bu olmalıdır. İxrac təbii ki, bazarlara bağlıdır. Bazarlar var ənənəvi, var yeni. Ona görə ənənəvi bazarlarda bizim məhsul nə vaxta qədər lazım olacaq? Bu təhlil də aparılmalıdır. Prinsipcə müvafiq göstərişlər verildi ki, tərəfdaş ölkələrlə bu məsələlər də müzakirə edilsin ki, biz tutaq ki, meyvə, tərəvəz, bostan məhsullarını böyük həcmdə ixrac edirik. Nə vaxta qədər buna tələbat olacaq bizim üçün ənənəvi sayılan bazarlarda? Çünki indi bir çox ölkələr ərzaq təhlükəsizliyi ilə məşğuldurlar. Düzdür, bəzi ölkələrdə iqlim imkan vermir ki, müxtəlif meyvələr yetişdirilsin. Ancaq hər halda bizim ixracımız bazarlara bağlı olmalıdır. Ona görə subsidiyalar veriləndə, əlbəttə, bu amillər nəzərə alınmalıdır - daxili tələbatın bağlanması və ixrac imkanlarının genişləndirilməsi. Yəni ona görə subsidiyalar da çox çevik olmalıdır. Bəlkə də hər il yenidən baxılmalıdır - həm rayonlar üzrə, həm yetişdirilən məhsul üzrə. Yəni bir dəfə bu məhsula bu qədər subsidiya veririk və 10 il bu davam edir, belə olmaz. Yəni bu, çox çevik mexanizm olmalıdır. Bu da təbii ki, bütün aidiyyəti qurumlar tərəfindən nəzərə alınmalıdır.

Kənd təsərrüfatı texnikası ilə təminat. Bu istiqamətdə də çox böyük işlər görülmüşdür. Son 20 il ərzində biz faktiki olaraq öz texnika parkımızı tamamilə yenidən formalaşdırdıq. Köhnədən qalan texnikalar demək olar ki, artıq yoxdur və burada da dövlət fermerlər üçün kifayət qədər qəbul edilən şərtlər ortaya qoyub. O cümlədən indi biz özümüz də kənd təsərrüfatı texnikasını istehsal edirik və gələcəkdə bu istiqamətdə əlavə addımlar atılacaq.

Gübrə istehsalının artırılması. Biz indi Karbamid zavodunun fəaliyyəti nəticəsində nəinki özümüzü, hətta bir çox ölkələri azot gübrələri ilə təmin edirik. Ancaq bu, cəmi bir növ gübrədir. Bizə bir çox növ gübrələr lazımdır. Ona görə bəzi xarici şirkətlərlə indi bu məsələlər müzakirə edilir, Azərbaycanda qarışıq gübrə istehsalının yaradılması və gübrələrin fasiləsiz ölkəmizə idxal edilməsi. Çünki bu məsələlərdə də dünyada indi vəziyyət qeyri-müəyyəndir. Bəzi gübrə zavodları bağlanıb, çünki qazın qiyməti kəskin artanda gübrə istehsalı iqtisadi cəhətdən səmərəli olmur, müəyyən qıtlıq yaradılır. Ona görə, əlbəttə, praqmatizm nöqteyi-nəzərindən biz başa düşməliyik ki, biz bütün növ gübrələri istehsal edə bilməyəcəyik, ancaq hər halda onların çeşidlərini genişləndirməliyik.

Kənd təsərrüfatı ilə məşğul olanlar üçün metodik tövsiyələr, treninqlər, bu, artıq uzun illərdir davam edir. Maarifləndirmə prosesi və sığorta məsələləri. Yəni bütün bunları biz daha da təkmil şəkildə həyata keçirməliyik.

Biz kənd təsərrüfatının inkişafı ilə əlaqədar birinci proqramı qəbul edəndə soyuducu anbarların yaradılması məsələsi çox kəskin dayanmışdı. Çünki bu olmadan məhsulu saxlamaq mümkün deyil. Deyə bilərəm ki, son illər ərzində Azərbaycanda 400 min ton tutumlu soyuducu anbarlar yaradılıb. İndi təsəvvür edin ki, bu olmasaydı. Burada da onların mütləq əksəriyyəti güzəştli, azfaizli kreditlər hesabına yaradılıb. Ancaq soyuducu anbarların tutumu bizdə 500 min ton olmalıdır. Ona görə 100 min ton tutumlu soyuducu anbar infrastrukturu yaradılmalıdır.

Su təchizatı. Bunsuz kənd təsərrüfatının inkişafı mümkün deyil. Burada da qeyd etdiyim kimi, bir çox önəmli layihələr icra edildi. Su anbarları - Taxtakörpü, Şəmkirçay ən böyük su anbarlarıdır, Göytəpə su anbarı, digər su anbarları. İndi 10 su anbarının yenidən qurulması layihəsi icra edilir. Qarabağ və Şərqi Zəngəzur işğalçılardan azad ediləndən sonra dərhal orada su anbarlarının bərpasına başlamışıq və artıq Köndələnçay su anbarlarının sayı üç oldu. Xaçınçay, ondan sonra Suqovuşan, Sərsəng, Zabuxçay su anbarları yenidən quruldu. Sovet vaxtında yox idi, indi Bərgüşad və Həkəri su anbarlarının tikintisi işləri gedir. Qarabağda və Şərqi Zəngəzurda bizim 25 faiz su ehtiyatlarımız formalaşır. Onlardan səmərəli istifadə etmək, həm o bölgəni, həm digər bölgələri su ilə təmin etmək mümkün olacaq. Çünki vaxtilə Sərsəng və Suqovuşan su anbarları Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılanda məqsəd Qarabağın hüdudlarından kənarda olan 7-8 rayonu su ilə təmin etmək idi. O vaxt, işğaldan sonra ermənilər suyumuzu kəsmişdilər. İndi bir kanal fəaliyyətdədir. Digər kanalın tikintisi davam edir və beləliklə, 8 rayona, təqribən 100 min hektar torpağa su veriləcək.

Şirvan kanalı. Bunun tikintisinə biz beton kanal olaraq başlamışıq və yəqin ki, gələn il artıq istifadəyə veriləcək. Bu da böyük həcmdə torpaq sahələrini su ilə təmin edəcək. Bu barədə bu gün məruzə ediləcək.

Biz Qarabağ kanalının bərpasına, yenidən qurulmasına başlamışıq. Vaxtilə bunlar Yuxarı Şirvan, Yuxarı Qarabağ kanalları adlandırılırdı. Amma Aşağı Şirvan, Aşağı Qarabağ kanalları olmadığı üçün biz qərara gəldik ki, bunları elə Şirvan və Qarabağ kanalları adlandıraq. Yəni bu kanallar işə düşəndən sonra bəlkə də 200-300 min hektar torpağa su veriləcək. Ancaq bu torpaqlarda müasir şəbəkə qurulmalıdır və bu da Dövlət Proqramında nəzərdə tutulur. Müasir suvarma sistemləri hazırda, - bu da dövlətin dəstəyi ilə mümkün olub, - 130 min hektarda tətbiq olunur. Məqsəd bunu 300 min hektara çatdırmaqdır. Əgər bizim 300 min hektarda müasir suvarma sistemləri qurularsa, baxın, nə qədər məhsuldarlıq arta bilər.

Məhsuldarlığa gəldikdə, son illər ərzində burada artım var və biz bunu yüksək qiymətləndiririk. Misal üçün taxılçılıqda, bizdə bu gün hər hektardan 3,2 ton məhsul yığılır. Əvvəlki illərdə bu, təqribən 2 ton, bəlkə də bir qədər çox idi. Məqsəd bunu 5 tona çatdırmaqdır.

Pambıqçılıq. Qeyd etdiyim kimi, bizdə hektardan məhsuldarlıq cəmi 1 ton idi, görülmüş işlər nəticəsində 3,6 tona çatıb. Bu da bütün dövrləri, hətta sovet dövrünü götürsək, ən yüksək nəticədir. Amma məqsəd hər hektardan ən azı 5 ton götürməkdir. Belə olan halda bizdə 100 min hektarda ki, pambıq əkilir, 500 min ton pambıq istehsal olunacaq. Əlbəttə ki, bunun ondan sonrakı emalı məsələlərinə də biz baxırıq. İplik, ondan sonra hazır məhsul - qarşıya məqsəd qoyulmalıdır ki, biz mahlıc ixrac etməyək, hazır məhsul istehsal edək, ixrac edək. Bu istiqamətdə artıq işlər görülür. Yeni fabriklər qurulmalıdır və mən investorları buna dəvət edirəm.

İntensiv bağçılıq. Biz bunun da müsbət nəticəsini görürük, o cümlədən azad edilmiş torpaqlarda. Ağalı kəndinin yaxınlığında salınmış meyvə bağı. Mən bu yaxınlarda Zəngilanda olarkən məlumat verildi ki, artıq oradan ixrac da olunur. Yəni intensiv bağçılıq, xüsusilə meyvə yetişdirilən bölgələrdə əsas prioritet olmalıdır və burada qarşıya məqsəd qoyulur ki, 20 min yeni hektarda intensiv bağçılıq səviyyəsində bağlar qurulsun.

İstixana kompleksləri. Bu gün bizim 1500 hektarı əhatə edən istixanalarımız var, 500 hektar əlavə olunmalıdır. Əlbəttə ki, biz burada da ilk növbədə, özəl sektorun fəaliyyətinə arxalanırıq.

Ət, süd, quş əti ilə 100 faiz özümüzü təmin etməliyik. Mən rəqəmləri qeyd etdim, təqribən 80-90 faiz səviyyəsindədir. Bunu 100 faizə çatdırmaq üçün mən hesab edirəm ki, imkanlar var və bu proqram qeyd etdiyim kimi, qısamüddətli olmalıdır, 2026-2030-cu illəri əhatə edəcək. Nəzərə alsaq ki, 2026-cı ilin demək olar ki, yarısı artıq arxada qalır, bu proqramın icrası üçün cəmi dörd il yarım qalır. Buna görə dövlət xətti ilə proqramın maliyyələşdirilməsi üçün vəsait bu il ayrılmalıdır.

Hökumətə tapşırıram ki, vəsait tapılsın və özəl sektorla da müxtəlif qurumlar, təbii ki, Kənd Təsərrüfatı Nazirliyi, Hökumət, ondan sonra Prezident Administrasiyası, İqtisadiyyat Nazirliyi, digər qurumlar fəal işləməlidirlər. Təxmini hesablamalar aparılıb. Əlbəttə ki, indidən bunu demək çox çətindir. Amma təxmini hesablamalar göstərir ki, dövlət xətti ilə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi üçün 2 milyard manatdan çox vəsait lazım olacaq, özəl sektorun payı isə təqribən 3 milyard manatdan çox olacaq. Çox böyük rəqəmdir. Xüsusilə nəzərə alsaq ki, cəmi dörd il yarım ərzində bunu biz həyata keçirməliyik, ona görə proqram qəbul ediləndən dərhal sonra biz işlərə başlamalıyıq.

# WUF13: Azərbaycanın multikulturalizmə verdiyi daha bir mühüm töhfə




Azərbaycan paytaxtında BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13 sessiyası (WUF13) uğurla yekunlaşdı. Ölkəmizdə 2024-cü ilin noyabr ayında keçirilən və qlobal iqlim məsələlərinə həsr olunan COP29 -da olduğu kimi, WUF13-də də Azərbaycan ev sahibi ölkəsi olaraq yeni çağırışlar dönəmində beynəlxalq birliklə həmrəyliyini ortaya qoydu və böyük səylər göstərməklə bir sıra mühüm substantiv nəticələr qazanılmasına nail oldu.

Respublikamızda Ümumdünya Şəhərsalmaa Forummunun 13-cü sessiyasının keçirilməsi və burada aktual müzakirələr əsnasında əldə olunan nəticələr Azərbaycanın beynəlxalq birliyin şəhərsalma ilə bağlı kollektiv fəaliyyətinə sanballı töhfəsidir. Forumla bağlı bu və digər mühüm məqamlara Azərbaycan Prezidenti İlham Əliyevin sosial şəbəkə hesablarında BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) başa çatması ilə bağlı edilən paylaşımda məmnunluq hissi ilə diqqət çəkilib.

## Qlobal şəhərsalma gündəliyinə verilən güclü siyasi impuls

Paylaşımda vurğulandığı kimi, Azərbaycan COP29-dan sonra ölkədə keçirilən ikinci ən böyük beynəlxalq tədbir olan WUF13 kimi daha bir mühüm qlobal tədbirə ev sahibliyi etmək şərəfinə nail oldu. Yeni çağırışların yarandığı indiki həssas dönəmdə Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının paytaxtımızda keçirilməsinə qərar verilməsi beynəlxalq birliyin ölkəmizə olan böyük inamının daha bir ifadəsidir. Bu inam bir sıra amillərlə şərtlənir.

Əvvəla, Azərbaycan ardıcıllıqla həyata keçirlən siyasətin nəticəsi olaraq BMT tərəfindən bəyan olunan Dayanıqlı İnkişaf Məqsədlərinə çatılması yolunda ciddi uğurlara imza atıb. Dinamik templərlə inkişaf edən respublikamızın təcrübəsi bütün dünya üçün nümunə sayıla bilər.

Digər tərəfdən, Azərbaycanın Prezident İlham Əliyev tərəfindən müəyyənləşdirilən multiregional xarici siyasət kursu xoş məramа əsaslanır. Yaranan qlobal çağırışlar qarşısında beynəlxalq həmrəyliyin gücləndirilməsi təşəbbüsləri bu siyasətin mühüm istiqamətini təşkil edir. Yeni növ koronavirus pandemiyası dönəmində dünya Azərbaycanın beynəlxalq həmrəyliyə necə böyük töhfələr verdiyinin şahidi oldu. Həmin kritik dönəmdə respublikamız Ümumdünya Səhiyyə Təşkilatını, imkanları məhdud olan dövlətləri həm siyasi, həm də maddi cəhətdən dəstəklədi. Azərbaycan həmçinin 2024-cü ilin noyabrında iqlim sammitinə böyük uğurla ev sahibliyi etməklə qlobal çağırışlara həssas yanaşmasını və beynəlxalq birliyin kollektiv fəaliyyətlərində yaxından iştirak etməkdə israrlı mövqedə olduğunu ortaya qoydu.

Azərbaycanın qlobal həmrəyliyə verdiyi töhfələr beynəlxalq birlik tərəfindən yüksək dəyərləndirilir. Bu gün dünyada Azərbaycana böyük inam və hörmət bəslənilir. Öz növbəsində respublikamız beynəlxalq birliyin etimadını yüksək məsuliyyət kimi qəbul edir və onu doğrultmağa çalışır. Bunun növbəti təsdiqi isə WUF13 oldu. “Təxminən 60 min iştirakçının rekord sayı ilə WUF13 tarixə ən böyük Ümumdünya Şəhərsalma Forumu kimi düşdü. Azərbaycanın təşəbbüsü ilə ilk dəfə təşkil olunan Liderlər Seqmenti qlobal şəhərsalma gündəliyinə daha böyük siyasi impuls vermiş oldu”, - deyə paylaşımda vurğulanır.

WUF13 sessiyasına ev sahibi hüququnun Azərbaycana verilməsini şərtləndirən digər bir vacib amil isə, heç şübhəsiz ki, ölkəmizin şəhərsalma sahəsində qazandığı unikal təcrübədir. Çox doğru olaraq WUF13 ölkənin beynəlxalq urban siyasəti və qlobal əməkdaşlıq proseslərində artan rolunun göstəricisi kimi qiymətləndirilir. Tədbirə Bakı şəhərinin ev sahibliyi etməsi yalnız təşkilati məsuliyyət deyildi, həm də şəhərsalma sahəsində əldə edilən təcrübənin dünyaya təqdim olunması üçün əlverişli imkanın yaranması demək idi. Respublikamızda şəhərsalmanın qədim tarixi var. Prezident İlham Əliyevin bildirdiyi kimi, nəinki Bakı, o cümlədən Azərbaycanın bir çox qədim şəhərləri öz memarlığı ilə fərəhlənə bilər. Dövlətimizin başçısı WUF13-ün açılış mərasimindəki çıxışında böyük məmnunluq hissi ilə Azərbaycanın bir neçə tarixi şəhəri və zaman-zaman yaradılan memarlıq abidələri barədə qonaqlara məlumat verib. Vaxtilə Şirvanşahlar dövlətinin paytaxtı olan və XIV əsrdə yazıb-yaratmış dahi Azərbaycan şairi Nəsiminin doğulduğu yerdə - Şamaxıda 743-cü ildə tikilmiş dünyanın ən qədim məscidlərindən biri var. Bir vaxtlar Atabəylər dövlətinin paytaxtı olan, dahi memar Əcəmi Naxçıvaninin vətəni Naxçıvanda onun tikdiyi XII əsrə aid Möminə xatun türbəsi var. Dünyanın ən qədim şəhərlərindən biri olan, XII əsrdə yaşayıb-yaratmış digər dahi Azərbaycan şairi Nizami Gəncəvinin vətəni Gəncə bu gün Bakı kimi inkişaf edir və tarixi simasını qoruyur. Qafqaz Albaniyası dövlətinin paytaxtı Qəbələdə və əsas şəhərlərdən biri olan Şəkidə çoxsaylı tarixi abidələr var.

## Dünya üçün dəyərli nümunə - Azərbaycanın unikal təcrübəsi

Paytaxt Bakı həm Şərq, həm də Qərb şəhər inkişaf modellərinin kəsişməsində yerləşən dinamik urban mərkəzi kimi çıxış edir. Bu gün biz paytaxt Bakının timsalında qədimliklə müasirliyin unikal vəhdətini görə bilərik. Tarixin daş möhürləri olan İçərişəhər, Qız Qalası, Şirvanşahlar Sarayı keçmişdə də əcdadlarımızın memarlıq təxəyyüllərinin nə qədər geniş olduğunu göstərir. Eyni zamanda, bu gün Azərbaycanın gur inkişafını təcəssüm etdirən müasir, əzəmətli Bakı formalaşır. Heydər Əliyev Mərkəzinin unikal memarlıq həllinə malik binası, Üç Alov qüllələri və digər tikililər paytaxtımızın yeni gözəllik rənmzlərinə çevrilib. 2024-cü ilin əvvəlində təqdim olunan Bakı şəhərinin Baş Planı ölkəmizin müasir şəhərsalma çağırışlarına yanaşmasını aydın şəkildə nümayiş etdirir.

Bu gün həmçinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə reallaşdırdığı bərpa modelini fəxrlə təqdim etmək mümkündür. Bu model dayanıqlılıq, ərazi reinteqrasiyası və insanyönümlü inkişaf prinsiplərinə əsaslanır. Qarabağ və Şərqi Zəngəzurdakı şəhər və kənd icmaları üçün kompleks Baş planlar hazırlanıb və həyata keçirilir. Bu forum vasitəsilə Azərbaycan şəhər mühitində əlçatanlıq, inklüzivlik və dayanıqlılıq prinsiplərinin tətbiqinə dair real təcrübəsini beynəlxalq ictimaiyyətlə bölüşmək imkanı əldə edib. Ölkəmizin şəhərsalma təcrübəsinin dünya üçün nümunə kimi səciyyələndirildiyi paylaşımda oxuyuruq: “Urbisid, kultursid və ekosidin qurbanı olmuş ölkə kimi Azərbaycan hazırda Qarabağ və Şərqi Zəngəzurda 9 şəhəri və yüzlərlə kəndi sıfırdan yenidən qurur. Buna görə də beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycanın münaqişədənsonrakı bərpa səylərinin yüksək qiymətləndirilməsindən qürur duyuruq; bu səylər dünyanın digər postmünaqişə bölgələri üçün dəyərli nümunə kimi vurğulanır.”

## WUF13-ün heyrətamiz nəticələri

Dövlət başçısının sosial şəbəkə hesabında edilən paylaşımda, həmçinin Azərbaycan paytaxtının ev sahibliyi etdiyi tədbirin beynəlxalq birliyin kollektiv fəaliyyəti üçün dəyərli töhfə olan heyrətamiz nəticələrinə diqqət çəkilib. “WUF13 çərçivəsində aparılan zəngin və hərtərəfli müzakirələr iki mühüm yekun sənədin - Sədrin Xülasəsi və “Bakı Fəaliyyətə Çağırış” sənədinin qəbul olunması ilə nəticələndi”, - deyə paylaşımda bildirilir.

Azərbaycanda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası rekord nəticələr və diqqətçəkən məqamlarla yekunlaşıb. Qlobal şəhərsalma gündəliyinin inkişafı, tərəfdaşlıqların genişlənməsi və gələcək əməkdaşlıq imkanlarının gücləndirilməsi baxımından Forum mühüm platforma rolunu oynayıb. WUF13-də ümumi iştirakçı sayı 176 ölkədən (o cümlədən ən azı 3 000 onlayn iştirakçı olmaqla) 58 000 nəfəri ötüb. Bu göstəricilər Forumun 24 illik tarixində WUF13-ün ən böyük sessiya kimi yadda qalmasına səbəb olub. Forum gender bərabərliyi baxımından da mühüm nəticə əldə edib - iştirakçıların 55 faizdən çoxunu qadınlar və qızlar təşkil edib.

Ümumdünya Şəhərsalma Forumunun tarixində ilk dəfə olaraq, ev sahibi ölkənin təşəbbüsü ilə təşkil edilən Liderlər Sammitində 27 dövlət və hökumət başçısı iştirak edib. Forum çərçivəsində 150-dən çox nazir, 130-dan artıq şəhər başçısı, BMT Baş katibinin müavini və bir sıra yüksək səviyyəli rəsmilər təmsil olunub. WUF13-ün əsas yeniliklərı sırasında Bakı Urban Mükafatı, Biznes və İnnovasiya Hub-ı, WUF Akademiyası kampusu və Təcrübələr Hub-ı xüsusi yer tutub.

Forumun əsas nəticəsi isə, heç şübhəsiz ki, “Bakı Fəaliyyətə Çağırış” (Baku Call to Action) sənədinin qəbul edilməsi olub. Sözügedən sənəd qlobal mənzil böhranının aradan qaldırılması və Yeni Şəhər Gündəliyinin həyata keçirilməsi istiqamətində dövlətlərin, beynəlxalq təşkilatların, şəhərlərin, vətəndaş cəmiyyətinin və ekspertlərin ortaq baxışını əks etdirir.

Forumun yekunları üzrə qəbul edilən və mühüm irs sənədlərindən biri hesab olunan “Sədrin Xülasəsi” (Chair Summary) şəhərsalma və dayanıqlı inkişaf sahəsində beynəlxalq əməkdaşlığın əsas istiqamətlərini özündə əks etdirib. Sənəddə şəhərlərin dayanıqlılığı, əlçatan mənzil siyasəti, iqlim dayanıqlılığı və inklüziv şəhərsalma sahəsində praktiki həllərin birgə hazırlanmasının vacibliyi vurğulanır, eyni zamanda qlobal mənzil böhranının aradan qaldırılması istiqamətində beynəlxalq gündəliyin təşviqi ön plana çəkilir. Sənədlərdə Prezident İlham Əliyevin dayanıqlı inkişaf, müasir şəhərsalma, post-münaqişə bərpası və qlobal əməkdaşlıq sahələrində həyata keçirdiyi uzaqgörən siyasət və strateji liderlik xüsusi vurğulanıb. “Forumdan irəli gələn və yekun sənədlərdə öz əksini tapan ideyalar - təmiz hava və dayanıqlı şəhər inkişafından tutmuş mədəni irsin qorunması və inkişaf etməkdə olan kiçik ada dövlətlərin ehtiyaclarınadək - qlobal şəhərsalma gündəliyini daha da zənginləşdirəcək və istiqamətləndirəcək”, - deyə paylaşımda bildirilib.

## Qlobal qeyri-müəyyənlik şəraitində Azərbaycanın fərqli mümunəsi

Nümunəvi tolerantlıq mühitinə malik olması Azərbaycanı fərqləndirən çox mühüm bir cəhətdir və bu, dünyada mədəniyyətlərarası dialoqun kritik dönəmdən keçdiyi indiki dövrdə xüsusi nəzərə çarpır. Açıq deyək ki, dünyada müşahidə edilən mənzərə heç də ürəkaçan deyil. Bir sıra hallarda sivilizasiyalararası qarşıdurmaların müşahidə edilməsi son dərəcə kədərli təəssüratlar oyadır. Bəşəriyyət sanki geridönüş edir və ayrı-ayrı məkanlarda dinlər, etiqadlar, irqlər arasında qarşıdurmalar açıq müstəviyə keçir. Ən qorxulu cəhət ondan ibarətdir ki, mədəniyyətlərarası dözümsüzlük əksər hallarda müəyyən qüvvələr, hətta dövlətlər səviyyəsində təşviq edilərək qızışdırılır.

Dünyadakı belə kədərli mənzərə ilə müqayisədə respublikamızın reallıqları tamam fərqlidir. Başqa dinlərə, mədəniyyətlərə sayğılı münasibət bəslənilməsi Azərbaycanda oturuşmuş bir ənənədir. Tarix boyunca respublikamızın ərazisində müxtəlif inanclara məxsus insanlar əminamanlıq şəraitində yaşayaraq öz gələcəklərini qurublar. Tarixdən gələn ənənələr bu gün də yaşayır. Azərbaycan çoxkonfessiyalı dövlətdir. Hazırda ölkə əhalisinin 96 faizini müsəlmanlar, 4 faizini xristian, yəhudi və digər dinlərin nümayəndələri təşkil edirlər. Lakin belə fərqlilik ölkəmizdə əsla ayırıcı xətlər yaratmır, əksinə, biz bununla qürur duyuruq.

Azərbaycan malik olduğu multikultural dəyərləri müxtəlif yollarla, o cümlədən paytaxtımızda ənənəvi olaraq keçirilən mədəniyyətlərarası dialoq forumları, ölkəmizdə əsası qoyulan Bakı prosesi vasitəsilə dünyada təşviq etməyə ardıcıl səylər göstərir. Birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da bu istiqamətdə dövlət siyasətinə güclü dəstək verir. Fondun uğurla reallaşdırdığı multikultural çağırışları özündə ehtiva edən tədbirləri artıq bütün dünyada məşhurdur.

Həmçinin WUF13 tədbirində də beynəlxalq birlik Azərbaycanın multikultural mühitinə və bu istiqamətdəki niyyətlərinə bir daha şahidlik etdi. Qeyd edək ki, WUF13 çərçivəsində yerli xalqların hüquqları ilə bağlı tədbir keçirilib. “Yerli xalqların hüquqları üzrə dəyirmi masa”da bildirilib ki, yerli xalqlar bəşəriyyətin mədəni yaddaşını və tarixi irsini yaşadan əsas daşıyıcılardır. Onların hüquqlarının müdafiəsi təkcə hüquqi və siyasi deyil, həm də mənəvi və humanitar bir öhdəlikdir. Urbanizasiya prosesləri heç bir halda yerli xalqların və etnik icmaların öz kimliyini, dilini və mədəni yaddaşını itirməsinə səbəb olmamalıdır, əksinə, şəhərlər müxtəlif etnik və dini icmaların özlərini təhlükəsiz və bərabərhüquqlu hiss etdikləri inklüziv məkana çevrilməlidir. “Qlobal qeyri-müəyyənliyin artdığı bir dövrdə WUF13 Azərbaycanın daha yaxşı gələcək naminə multikulturalizmə və kollektiv fəaliyyətə verdiyi daha bir mühüm töhfədir”, - deyə paylaşımda vurğulanıb.

***Mübariz ABDULLAYEV***

# WUF13 siyasi uğurlarımızın növbəti təsdiqidir

## Bakı beynəlxalq əməkdaşlıq və qlobal dialoq məkanı kimi

Son illərdə Azərbaycanın beynəlxalq nüfuzu və qlobal siyasətdə rolu ardıcıl şəkildə artmaqdadır. Bakı regional təhlükəsizliyin möhkəmləndirilməsi, enerji və nəqliyyat kommunikasiyalarının şaxələndirilməsi, Şərqlə Qərb arasında strateji körpü rolunun gücləndirilməsi istiqamətində həyata keçirdiyi uğurlu siyasətlə beynəlxalq münasibətlər sistemində mühüm mövqe qazanıb. Azərbaycanın təşəbbüsü ilə reallaşan irimiqyaslı layihələr və beynəlxalq tədbirlər ölkənin diplomatik imkanlarını, təşkilatçılıq qabiliyyətini və etibarlı tərəfdaş imicini daha da möhkəmləndirib.

COP29 kimi qlobal əhəmiyyətli tədbirin uğurla təşkilindən sonra Bakının Ümumdünya Şəhərsalma Forumuna - WUF13-ə ev sahibliyi etməsi Azərbaycanın beynəlxalq nüfuzunun daha bir göstəricisinə çevrildi. 176 ölkədən 60 minədək iştirakçının qatıldığı forum bugünədək keçirilmiş ən genişmiqyaslı Ümumdünya Şəhərsalma Forumu kimi tarixə düşdü. Bu fakt Azərbaycanın artıq yalnız regional deyil, həm də qlobal miqyasda siyasi, iqtisadi və humanitar məsələlərin müzakirə olunduğu mühüm platformaya çevrildiyini göstərir. Bakının belə mötəbər beynəlxalq tədbirləri yüksək səviyyədə təşkil etməsi ölkənin müasir infrastrukturunu, təhlükəsiz mühitini və diplomatik potensialını nümayiş etdirməklə yanaşı, Azərbaycanın beynəlxalq əməkdaşlıq və qlobal dialoq məkanı kimi nüfuzunu təsdiqləyir. WUF13 çərçivəsində müzakirə olunan urbanizasiya, dayanıqlı şəhər inkişafı və iqlim çağırışları kimi mövzular Azərbaycanın qlobal gündəliyin formalaşmasında aktiv iştirak etdiyini bir daha sübut edir.

**Azərbaycanın qlobal nüfuzunun real göstəricisi...**

Qəbul olunduğu kimi, 2030-cu ildən sonra yeni nizamın inkişaf ştrixləri daha fərqli - innovativ, müasir standartları özündə birləşdirən və yeni metodologiyaya əsaslanan amillərlə səciyyələnəcək. Bakı isə bu yeni gələcək üçün bir nümunə, bir standart formalaşdırır. İşğaldan azad edilmiş regionlarda görülən meqafəaliyyət bu standartı bütün dünya üçün normativə çevirir - çevik, sürətli, keyfiyyətli və müasir çağırışlara əsaslanan şəhərsalma qlobal dünyada da maraqla qarşılanır. Prezident İlham Əliyev tədbirin açılış mərasimindəki çıxışında bildirib ki, hazırda Böyük Qayıdış Proqramı həyata keçirilir, şəhər və kəndlərin Baş planları hazırlanır: “Mən, əlbəttə ki, çox rəqəm gətirə bilərəm, lakin yalnız ikisini qeyd edim. Artıq 5 il ərzində çəkdiyimiz tunellərin uzunluğu 70 kilometrdir. Digər beşi də tikiləcək. 500 körpüdən 435-i inşa olunub. Bununla yanaşı, elektrik stansiyaları, su təchizatı kəmərləri, su anbarları, evlər, məktəblər, xəstəxanalar, üç beynəlxalq hava limanı tikilib, dəmir yolları çəkilib. Bütün bunlar cəmi beş il ərzində inşa olunub. Yalnız dağıtmaq, məhv etmək və əziyyətlər vermək üçün gələnlərdən fərqli olaraq, məhz torpağın yiyələri bu cür davranırlar. Bu gün 85 mindən artıq azərbaycanlı keçmişdə işğal altında olmuş ərazilərdə yaşayır. Onlar işləyir, yaşayır, təhsil alır və onların məşğulluğu hökumətimizin ən mühüm hədəflərindən biridir”.

Bəli, WUF13 Azərbaycanın dayanıqlı inkişaf strategiyasının beynəlxalq səviyyədə maraq doğurduğunu ortaya qoydu. Vurğulandığı kimi, işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən “ağıllı şəhər” və “ağıllı kənd” layihələri, yaşıl enerji siyasəti və müasir urbanizasiya yanaşmaları forum iştirakçıları tərəfindən böyük maraqla qarşılandı. Bu isə Azərbaycanın postmünaqişə dövründə həyata keçirdiyi yenidənqurma siyasətinin beynəlxalq səviyyədə yüksək qiymətləndirildiyini göstərir.

Azərbaycanın beynəlxalq urbanizasiya proseslərinə verdiyi töhfənin və ölkəmizin etibarlı tərəfdaş kimi qazandığı yüksək etimadın mühüm göstəricisi isə foruma marağın miqyasının yüksək olmasıdır - 27 dövlətin rəhbər şəxslərinin Bakıya gəlişi Azərbaycanın qlobal mühitdə oynadığı rolu təsdiqləyir. Bu tədbir Azərbaycanın həm təşkilatçılıq imkanlarını, həm də qlobal proseslərə təsir gücünü nümayiş etdirdi.

**Dünya Bakının təşəbbüslərini dəstəkləyir...**

Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Ümumdünya Şəhərsalma Forumu tarixində ilk dəfə olaraq WUF13 çərçivəsində Liderlərin Bəyanatları Sessiyasının keçirilməsi isə forumun siyasi əhəmiyyətini daha da artırdı. Mayın 18-də təşkil olunmuş bu xüsusi seqmentdə dövlət və hökumət başçıları, beynəlxalq təşkilat rəhbərləri və yüksək səviyyəli qonaqlar iştirak etdilər. Liderlərin Bakıda bir araya gələrək qlobal məsələlər ətrafında müzakirələr aparması Azərbaycanın beynəlxalq münasibətlər sistemində artan rolunun aydın göstəricisi oldu. Sessiyada iştirak edən liderlər Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının yüksək səviyyədə təşkilinə və göstərilən qonaqpərvərliyə görə Azərbaycan rəhbərliyinə dərin minnətdarlıqlarını ifadə edib, Prezident İlham Əliyevin rəhbərliyi ilə Bakının mühüm dialoq mərkəzinə çevrilməsini, eləcə də işğaldan azad olunmuş ərazilərdə qısa müddətdə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərini yüksək qiymətləndiriblər. Çıxışçılar WUF13-ün şəhərsalma sahəsində mövcud olan problemlərin müzakirəsi və yeni ideyaların irəli sürülməsi baxımından mühüm platforma olduğunu vurğulayıb, bu tədbirin mühüm əhəmiyyətini qeyd ediblər. Bu, Azərbaycanın təşəbbüslərinə verilən böyük siyasi dəstək kimi qiymətləndirilir. Bu qiymət eyni zamanda Azərbaycanın Cənubi Qafqazda formalaşdırdığı yeni reallıqların beynəlxalq səviyyədə qəbul olunduğunu göstərir. İşğaldan azad olunmuş ərazilərdə qısa müddətdə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri, bölgədə dayanıqlı sülhün təmin olunması istiqamətində atılan addımlar beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir. Liderlərin bəyanatları Azərbaycanın qlobal sülhə, əməkdaşlığa və sivilizasiyalararası dialoqa verdiyi töhfələrin dəstəkləndiyini ortaya qoyur.

**Regional liderlik mövqeyi...**

Beləliklə, WUF13-ün Bakıda keçirilməsi Azərbaycanın beynəlxalq nüfuzunun, siyasi-diplomatik gücünün və təşkilatçılıq imkanlarının növbəti mühüm təsdiqi oldu. Vurğulandığı kimi, tədbir həm də Azərbaycanın regional liderlik mövqeyini daha da möhkəmləndirdi. Bakı beynəlxalq təhlükəsizlik, dayanıqlı inkişaf, urbanizasiya və qlobal əməkdaşlıq məsələlərinin müzakirə olunduğu mühüm mərkəz kimi çıxış edir. WUF13 bir daha sübut etdi ki, Bakı isə özünü Cənubi Qafqazın aparıcı siyasi və diplomatik mərkəzi kimi təsdiqləməyi bacardı.

*P.İSMAYILOV*




# WUF13: Azərbaycanın yüksək qiymətə layiq təşkilatçılığı

Azərbaycan paytaxtının ev sahibliyi ilə keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) başa çatsa da, onunla bağlı böyük təəssüratlar uzun müddət unudulmayacaq. Cari il may ayının 17-22-də Bakıda BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) himayəsi altında keçirilən WUF13 dayanıqlı şəhər inkişafı sahəsində son illərin ən mühüm beynəlxalq tədbirlərindən biri kimi yadda qalıb. 176 ölkədən 58 mindən çox iştirakçını bir araya gətirən forum Azərbaycanın qlobal dialoq və əməkdaşlıq platforması kimi artan rolunu bir daha dünyaya nümayiş etdirib.

Azərbaycanın ilk dəfə ev sahibliyi etdiyi bu mötəbər tədbir Bakını şəhərlərin gələcəyi, mənzil siyasəti, iqlim dayanıqlılığı və inklüziv inkişaf məsələlərinin müzakirə olunduğu beynəlxalq mərkəzə çevirib. Bu baxımdan, WUF13-ün Bakıda keçirilməsi yalnız region üçün deyil, bütövlükdə qlobal urbanizasiya gündəliyi üçün də əlamətdar hadisə hesab olunur. Forum çərçivəsində müxtəlif mövzularda baş tutan panellərdə BMT təmsilçilərinin, iştirakçı ölkələrin hökumətlərinin yüksək səviyyəli nümayəndələrinin və vətəndaş cəmiyyəti təmsilçilərinin iştirakı ilə dünya şəhər gündəliyinin aktual məsələləri ətrafında müzakirələr aparılıb. Forumun əsas nəticəsi isə “Bakı Fəaliyyətə Çağırışı” (Baku Call to Action) sənədinin qəbul edilməsi olub.

**Bakıda nümunəvi WUF baş tutdu**

Ümumdünya Şəhərsalma Forumu BMT-nin ən mühüm platformalarından biridir. Eyni zamanda hazırda dünya üzrə şəhərsalma məsələlərinin aktuallığı heç vaxt olmadığı qədər artıb. Bakının ev sahibliyi etdiyi “Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri” mövzusuna həsr olunan forum çərçivəsində də dünyada şəhərsalmanın ən aktual problemlərindən biri olan mənzil böhranı əsas müzakirə mövzusu olub. BMT-nin qiymətləndirmələrinə görə, hazırda dünyada təxminən 2,8 milyard insan qeyri-qənaətbəxş şəraitdə yaşayır. Həmçinin müharibələr, iqlim dəyişmələri və digər belə mənfi təsirlər urban problemlərin miqyasının genişlənməsinə səbəb olur. Məhz bu səbəbdən WUF13 praktiki həllərin müzakirəsi və dayanıqlı şəhər inkişafı üzrə yeni yanaşmaların formalaşdırılması üçün mühüm platformaya çevrilib.

Belə bir mötəbər tədbirin ev sahibliyi hüququnun Azərbaycana verilməsi ölkəmizin beynəlxalq səviyyədə artan nüfuzunun əyani təsdiqidir. Azərbaycan imkanlarını təqdim etməklə müxtəlif çağırışlar qarşısında beynəlxalq həmrəyliyin güclənməsinə davamlı töhfələr verir və özünün həssas yanaşmalarını ortaya qoyur ki, bu da dünyada təqdirlə qarşılanır və ölkəmizə inamı artırır. Azərbaycan isə beynəlxalq birliyin etimadını yüksək məsuliyyət kimi qəbul edir və onu doğrultmağa çalışır. İndiyədək respublikamız ev sahibliyi etdiyi bütün beynəlxalq tədbirləri ən yüksək standartlar səviyyəsində keçirməyə nail olub.

Bu baxımdan, WUF13 də istisnalıq təşkil etməyib. Bunu forumun əsas nəticəsi kimi qəbul olunan “Bakı Fəaliyyətə Çağırışı” sənədinin məzmunundan da görmək mümkündür. Sözügedən sənəd qlobal mənzil böhranının aradan qaldırılması və Yeni Şəhər Gündəliyinin həyata keçirilməsi istiqamətində dövlətlərin, beynəlxalq təşkilatların, şəhərlərin, vətəndaş cəmiyyətinin və ekspertlərin ortaq baxışını əks etdirir. Əlamətdar haldır ki, sənəddə Azərbaycanın WUF 13-ü nümunəvi qaydada keçirdiyinə xüsusi diqqət çəkilib. Vurğulanıb ki, WUF13-ün Bakıda keçirilməsi Azərbaycanın dayanıqlı inkişaf, iqlim dayanıqlılığı və beynəlxalq əməkdaşlıq sahələrində qlobal gündəliyin formalaşmasında artan rolunun növbəti təsdiqi kimi qiymətləndirilir. Sənəddə Prezident İlham Əliyevin dayanıqlı inkişaf, müasir şəhərsalma, postmünaqişə bərpası və qlobal əməkdaşlıq sahələrində həyata keçirdiyi uzaqgörən siyasət və strateji liderlik xüsusi vurğulanıb. Eyni zamanda, Azərbaycan hökumətinə Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının yüksək səviyyədə təşkilinə, göstərilən qonaqpərvərliyə və yaradılmış səmərəli dialoq mühitinə görə təşəkkür ifadə olunub.

**WUF13-ün unudulmaz mirasları**

Paytaxtımızın yüksək səviyyədə ev sahibliyi etdiyi tədbirin heç vaxt unudulmayacaq gözəl mirasları barədə də məmnunluqla bəhs etmək mümkündür. WUF tarixində ilk dəfə olaraq, ev sahibi ölkənin təşəbbüsü ilə keçirilən Liderlərin Bəyanatları Sessiyasına 27 dövlət və hökumət başçısı qatılıb.

WUF13 çərçivəsində diqqətçəkən təşəbbüslərdən biri də Azərbaycanın UN-Habitat, Beynəlxalq Miqrasiya Təşkilatı və Bakı İqlim və Sülh Fəaliyyəti Mərkəzi ilə birlikdə hazırladığı “Təhlükəsiz qayıdış üçün ağıllı və dayanıqlı yaşayış məskənləri” (4SRP) təşəbbüsü olub. Bu təşəbbüs təhlükəsiz və dayanıqlı qayıdışın təmin olunması, həmçinin ekoloji dayanıqlılıq, iqlim adaptasiyası və sülh quruculuğu prinsiplərinə əsaslanan postmünaqişə bərpası üzrə beynəlxalq standartların formalaşdırılmasına yönəlib.

Tədbir çərçivəsində təqdim edilən yeniliklər sırasında həmçinin Bakı Şəhər Mükafatı da yer alır. Bu mükafat Ümumdünya Şəhərsalma Forumu çərçivəsində təqdim edilən yeganə beynəlxalq mükafat statusuna malik olacaq.

*Mübariz Feyizli*

# Bakıdan dünyaya örnək model...

## Ölkəmiz qlobal məsuliyyətin öhdəsindən layiqincə gəldi

Bakı daha bir mükəmməl təşkilatçılıq qabiliyyəti ilə dünyaya örnək modeli təqdim etdi - Ümumdünya Şəhərsalma Forumu (WUF13) COP29-dan sonra ölkəmizdə keçirilən ikinci ən böyük beynəlxalq tədbir kimi tarixdə qaldı. Azərbaycanın beynəlxalq urbanizasiya proseslərinə töhfəsinin və etibarlı tərəfdaş kimi yüksək nüfuzunu nümayiş etdirdi.

Prezident İlham Əliyevin təşəbbüsü ilə Ümumdünya Şəhərsalma Forumu tarixində ilk dəfə olaraq WUF13 çərçivəsində Liderlərin Bəyanatları Sessiyasının keçirilməsi isə WUF tarixində Azərbaycanın yeni bir ilkə imza atdığını, qlobal geosiyasi təlatümlərin yaşandığı narahat dünyada liderlərin sabitlik, təhlükəsizlik, rifah və həmrəylik ətrafında sıx birləşməsi üçün unikal modelin formalaşdığını əks etdirdi.

WUF13 çərçivəsində aparılan faydalı müzakirələrin yekununda iki mühüm sənədin (Sədrin Xülasəsi və “Bakı Fəaliyyətə Çağırış”) qəbul olunması qlobal tərəfdaşlar üçün yeni yol xəritəsinin istiqamətlərini və gələcək fəaliyyət niyyətlərini əks etdirən mühüm platforma hesab edilə bilər. Azərbaycanın Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə BMT-nin Məskunlaşma Proqramı arasında imzalanmış Niyyət Məktubu isə dayanıqlı inkişaf prioritetlərinə çatmaq üçün qabaqcıl təcrübələrin konsensus planı kimi dəyərləndirilməlidir.

Şəhərsalma sessiyasında yeni ideyaların müzakirəsi və əldə edilən anlaşmalar planetin ən ümdə hədəflərindən biri olan təmiz iqlim, dayanıqlı şəhər inkişafı, layiqli məskunlaşma prinsiplərinə çatmaqda iş planı və kollektiv fəaliyyət gündəliyi kimi səciyyələndirilməlidir.

WUF13 tədbiri Azərbaycanın müasir innovasiya və sənaye cəmiyyəti quruculuğunda iradəsini, ələlxüsus da işğaldan azad edilmiş ərazilərdə misilsiz şəhəralma landşaftı yaratmaq məharətini təqdim etməklə, qlobal tərəfdaşların müasir bərpa və yenidənqurma sahəsində fəaliyyətləri üçün koordinasiyanı yaratmış oldu. Xüsusilə də, Qarabağ və Şərqi Zəngəzurda indiyə qədər milli şəhərsalma forumlarının keçirilməsi ilə açıq təşəbbüslərə hazır olan Azərbaycanla urbanizasiyanın yeni standartlarını tətbiq edən sənaye şirkətlərin, “ağıllı və yaşıl tikinti” üzrə ixtisaslaşmış korporasiyalar arasında səmərəverici təcrübə və mübadilə bağlantıları üçün də sağlam və münbit əməkdaşlıq infrastrukturu formalaşır.

Ümumilikdə, Azərbaycanın üzərinə götürdüyü qlobal məsuliyyətin öhdəsindən layiqincə gəlməsi WUF13 sessiyasının modern şəhərsalma infrastrukturunda qlobal inteqrasiyanın dərinləşməsinə öz dərin töhfələrini verəcək.

*Elbrus Cəfərli*

# 15 il Qoşulmama Hərəkatının üzvü kimi...

## Azərbaycan təşkilatın beynəlxalq nüfuzunun yüksəlməsində mühüm rol oynayıb

Mayın 26-da Azərbaycanın Qoşulmama Hərəkatına (QH) üzv qəbul edilməsindən 15 il ötür. Öz xarici siyasətində heç bir hərbi alyansa qoşulmamaq istiqamətini seçmiş Azərbaycan 26 may 2011-ci il tarixində İndoneziyanın Bali adasında Hərəkata üzv olan dövlətlərin yekdil dəstəyini əldə edərək, QH-yə tamhüquqlu üzv qəbul olunub.

Ölkəmiz üzv olduqdan sonra təşkilatın işində fəal iştirak edib. Bunun nəticəsində də qısa müddət sonra Azərbaycan Qoşulmama Hərəkatına sədr seçilib. Belə ki, Bakı şəhəri 25-26 oktyabr 2019-cu il tarixində Hərəkatın 18-ci dövlət və hökumət başçılarının Zirvə Görüşünə ev sahibliyi edib. Tədbirdə 120 BMT üzv dövlətinin yüksək səviyyəli nümayəndələri və 42 beynəlxalq təşkilat nümayəndələri iştirak edib. Bakı Sammiti ilə Hərəkata Sədrlik 2019-2022-ci illər üzrə Azərbaycan Respublikasına keçib. Azərbaycanın sədrliyi dövründə gördüyü işlərə, irəli sürdüyü təşəbbüslərə və təsisatın fəaliyyətinin genişləndirilməsi, beynəlxalq aləmdə nüfuzunun artması istiqamətində atdığı addımlara görə ölkəmizə etimadın göstəricisi kimi Hərəkata sədrliyimiz daha bir il uzadıldı.

Məlumdur ki, Qoşulmama Hərəkatı dünyada BMT-dən sonra ən böyük beynəlxalq təsisatdır. Azərbaycan Prezidenti İlham Əliyevin siyasəti sayəsində ölkəmiz bu təsisata uğurla rəhbərlik etməklə onun beynəlxalq aləmdə nüfuzunu və rolunu gücləndirib, böyük nailiyyətlərə imza atıb. Dövlətimizin başçısının Qoşulmama Hərəkatının sədri kimi beynəlxalq müstəvidə davamlı və ardıcıl şəkildə irəli sürdüyü təşəbbüs və təkliflər daim həm Hərəkat, həm də digər ölkələrin geniş dəstəyini qazanıb.

Ölkəmizin Hərəkata sədrliyinin ilk illəri COVID-19 pandemiyası ilə əlaqədar dünyanı sarsıdan qlobal səhiyyə böhranı dövrünə təsadüf etsə də, Azərbaycan özünün sədrlik gündəliyini çevik və effektiv şəkildə yeni reallığa uyğunlaşdırdı. Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatı pandemiya ilə mübarizədə qlobal lider rolunu öz üzərinə götürdü və dünya ictimaiyyətini bu təhdidlə mübarizədə səfərbər etdi. 2020-ci ilin mayında Hərəkatın COVID-19 ilə mübarizəyə həsr edilən liderlər səviyyəsində onlayn sammitinin keçirilməsi bu istiqamətdə atılmış ilk addımlardan biri idi. Sammitdə Prezident İlham Əliyev BMT Baş Assambleyasının pandemiya ilə mübarizəyə həsr edilən xüsusi sessiyasının keçirilməsini təklif etdi. Bu təklif 150-dən çox ölkə tərəfindən dəstəkləndi və 2020-ci ilin dekabrında xüsusi sessiya uğurla baş tutdu. 70-dən çox dövlət və hökumət başçısının çıxış etdiyi bu xüsusi sessiya pandemiya ilə mübarizə sahəsində ən qlobal tədbir oldu.

Azərbaycanın Hərəkata sədrliyi dövründə həyata keçirdiyi ən önəmli fəaliyyətlərdən biri peyvənd milliətçiliyinə qarşı mübarizə aparması oldu. Təsadüfi deyil ki, Azərbaycanın təşəbbüsü ilə Qoşulmama Hərəkatı tərəfindən həm BMT İnsan Hüquqları Şurasında, həm də Baş Assambleyada “COVID-19 pandemiyası ilə mübarizədə bütün ölkələr üçün peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi”nə dair qətnamələr qəbul edildi.

Qlobal səhiyyə böhranı dövründə Azərbaycan özü də pandemiya ilə mübarizədə olmasına, Vətən müharibəsi aparmasına baxmayaraq, ehtiyacı olan digər dövlətləri də unutmadı. Azərbaycan əksəriyyəti Qoşulmama Hərəkatının üzvləri olmaqla, 80-dən çox ölkəyə koronavirusla bağlı maliyyə və humanitar yardım göstərdi. Təbii ki, bu, ölkəmizin Hərəkatın sədri kimi məsuliyyətinin və bəşəri dəyərlərə verdiyi önəmin göstəricisidir. Həmçinin Azərbaycan sözügedən məqsədlə Ümumdünya Səhiyyə Təşkilatına da yardım göstərib və təşkilata 10 milyon ABŞ dolları dəyərində könüllü maliyyə töhfəsi verib. Bu, həm də Azərbaycanın keçdiyi inkişaf yolunun, əldə etdiyi iqtisadi nailiyyətlərin göstəricisidir. Çünki vaxtilə maliyyə yardımı alan Azərbaycan artıq özü fəal donor ölkəyə çevrilib.

Qeyd edək ki, hələ 2019-cu ildə ölkəmiz Qoşulmama Hərəkatının sammitinə uğurla ev sahibliyi etdiyi tədbirdə Prezident İlham Əliyev Azərbaycanın öz sədrliyi dövründə beynəlxalq hüququ və ədalətli müdafiə edəcəyini, fəaliyyətini tarixi “Bandunq prinsipləri” üzərində quracağını bəyan etmişdi. Sədrliyi dövründə ölkəmiz Hərəkat üzvlərinin ədalətli mövqeyini beynəlxalq müstəvidə müdafiə etmək üçün öz səylərini əsirgəmədi. Məhz həmin sammitdə dövlətimizin başçısı qeyd etmişdi ki, Azərbaycan Qoşulmama Hərəkatında sədrliyi zamanı digər təsisatlarla dialoqun qurulması və inkişaf etdirilməsi, əməkdaşlığın coğrafiyasının genişləndirilməsi üçün səylər göstərəcək. Həmişə olduğu kimi, bu məsələdə də Prezident İlham Əliyevin dediyi ilə etdikləri üst-üstə düşdü. Hərəkata sədrliyimiz dövründə bu istiqamətlərdə ciddi addımlar atıldı. Belə ki, 2020-ci ilin mayında Qoşulmama Hərəkatının COVID-19 ilə mübarizəyə həsr edilən onlayn sammitində Avropa İttifaqının ali nümayəndəsinin videomüraciəti oldu. Bundan əlavə, BMT təsisatları çərçivəsində Qoşulmama Hərəkatı ilə Avropa İttifaqının birgə çıxışlar praktikası yaradıldı.




2019-cu ildə keçirilən Bakı sammitində dövlətimizin başçısı ən az inkişaf etmiş, dənizə çıxışı olmayan kiçik ada ölkələrinin üzləşdiyi təhdidlərə xüsusi diqqətin ayrılmalı olduğunu da bildirmişdi. Bunun məntiqi nəticəsi olaraq Prezident İlham Əliyev inkişaf edən kiçik ada dövlətləri və Afrika ölkələrinin pandemiyadan sonra daha yaxşı bərpası üçün qlobal çağırışlar elan etdi və ilk donor olaraq ölkəmiz bu məqsədlə hər iki çağırışa vəsait ayırdı.

Eyni zamanda, 2021-ci ildə Prezident İlham Əliyev Belqradda Qoşulmama Hərəkatının 60 illiyinə həsr edilmiş Yüksək Səviyyəli Toplantıda çıxışı zamanı Hərəkata üzv dövlətlərin artıq təsisatlanma ideyası üzərində düşünmələrinin vacibliyini qeyd etmişdi. Bu istiqamətdə də Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi səmərəli addımlar ataraq önəmli nəticələr qazandı. Sədrliyimiz dövründə Hərəkatın parlament və gənclər şəbəkələri yaradıldı. 2022-ci ildə Şuşa razılaşması əsasında Qoşulmama Hərəkatının Gənclər Təşkilatı təsis olundu və onun daimi katibliyi Bakıda yerləşir. Təşkilatın yaradılması kimi mötəbər uğurdan əlavə, Şuşa şəhərinin adı da artıq Qoşulmama Hərəkatının tarixinə düşdü. Bundan əlavə, ölkəmizin təşəbbüsü ilə təşkilatın Qadınlar Platforması da yaradılıb.

2021-ci ildə Prezident İlham Əliyev Belqradda Qoşulmama Hərəkatının 60 illiyinə həsr edilmiş Yüksək Səviyyəli Toplantıda Serbiyada postpandemiya dövrünün müzakirə edilməsi məqsədilə Hərəkata üzv ölkələrin yüksək səviyyəli görüşünün keçirilməsi təklifi ilə çıxış etdi. Beləliklə, 2023-cü il martın 2-də ölkəmizdə Qoşulmama Hərəkatının COVID-19-la bağlı Təmas Qrupunun növbəti sammiti uğurla keçirildi. Burada mövzu artıq pandemiyadan sonrakı dünya idi. Beynəlxalq sülh və təhlükəsizlik, beynəlxalq hüququn işləməməsi, ədalətin bərqərar olmasının vacibliyi, Şərq-Qərb ziddiyyətlərinin artdığı, “soyuq müharibə” mentalitetinin hökm sürdüyü yeni dünya nizamında Qoşulmama Hərəkatı ölkələrinin yerinin və gələcək siyasətlərinin müəyyənləşdirilməsi əsas müzakirə predmetləri oldu.

Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının sədri kimi vurğuladığı məsələlərdən biri də neokolonializmlə mübarizə məsələsidir. Dövlətimizin başçısı 2023-cü ilin martında keçirilən sammitdə vurğuladı ki, dekolonizasiya mühitində yaranmış Qoşulmama Hərəkatı bu mövzuya xüsusi önəm ayırmalıdır. Prezident İlham Əliyev Fransanı Afrika, Cənub-Şərqi Asiya və digər ərazilərdə Qoşulmama Hərəkatının üzvü olan ölkələrə qarşı müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə, eləcə də soyqırımı aktlarına görə üzr istəməyə və məsuliyyətini etiraf etməyə çağırdı.

Azərbaycanın Qoşulmama Hərəkatına üzvlüyünün, daha sonra isə sədrliyinin ölkəmiz üçün böyük töhfələri oldu. 2012-ci ildə Azərbaycanın 155 ölkənin səsini əldə edərək BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsində QH ölkələrinin dəstəyi də öz rolunu oynamışdı. QH üzv ölkələri Azərbaycanın ədalətli mövqeyinə dəstək vermişdi. Xüsusilə bu dəstək Vətən müharibəsi dövründə hiss edildi. 2020-ci ildə BMT Təhlükəsizlik Şurasında Azərbaycana qarşı irəli sürülmüş bəyanatın qarşısı 7 QH ölkəsi tərəfindən inamla alındı. Azərbaycanın ədalətli mövqeyinin QH ölkələri tərəfindən dəstəklənməsi onların bu məsələdə beynəlxalq hüquqa əsaslanmaları ilə yanaşı, eyni zamanda, etibarlı tərəfdaş olan və beynəlxalq aləmin məsuliyyətli və fəal üzvü olan Azərbaycanı dəstəkləmək istəyindən də qaynaqlanır.

Bundan başqa, Azərbaycan ötən müddət ərzində QH-nin fəaliyyət göstərdiyi BMT qərargahlarında, eləcə də digər beynəlxalq tədbirlərdə Hərəkat üzvləri adından yüzlərlə bəyanat səsləndirib, onlarla qətnamə layihələri və digər təşəbbüslər irəli sürüb, səfirlər və digər səviyyələrdə əlaqələndirmə görüşləri təşkil edib.

Beləliklə, məhz Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının beynəlxalq aləmdə nüfuzu daha da yüksəldi, onun beynəlxalq gündəlikdə duran qlobal məsələlərin həllində rolu daha da artdı. Prezident İlham Əliyevin sədrliyi ilə Hərəkat sürətlə dəyişən bugünkü dünyada öz mövqeyi və yeri olan mötəbər beynəlxalq təsisata çevrilib. Əslində, buna nail olmaq heç də asan deyil. Belə ki, Qoşulmama Hərəkatı fərqli etnik, dini, mədəni köklərə, siyasi quruluşlara malik və bəzən hətta bir-biri ilə kəskin münasibətdə olan 120 dövlətdən ibarətdir. Belə fərqli və mürəkkəb coğrafiyada birləşdirici, effektiv və nəticəyönümlü sədrlik etmək məhz Prezident İlham Əliyevin tarixi uğurudur. Bu uğurlu sədrliyi ilə Azərbaycan göstərdi ki, böyük ərazisi və əhalisi olmasa da, məhz güclü Liderin rəhbərliyi altında qlobal nailiyyətlərə imza ata bilər.

**Nardar BAYRAMLI**

# 103 ölkədən 569 QHT...

## WUF-la bağlı dünyada Azərbaycan təcrübəsinin öyrənilməsini təklif edir

Bu gün Azərbaycan dünyada etibarlı tərəfdaş və nüfuzlu dövlət kimi tanınır. Eyni zamanda, ölkəmiz sabitlik adası kimi xarakterizə olunur. Məhz bu səbəblərdən də, Azərbaycan mötəbər beynəlxalq tədbirlərin keçirildiyi mərkəzlərdən biridir. Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) Bakıda yüksək səviyyədə keçirilməsi də bu reallıqların əyani nümunəsidir.

Əlbəttə, belə bir qərarın qəbul olunması heç də təsadüfi deyil. Çünki Azərbaycanda şəhərsalma və memarlıq ənənələrinin çoxəsrlik zəngin bir keçmişi var. Günümüzədək gəlib çatan qala şəhərlər, memarlıq abidələri tarixin daş yaddaşı kimi səciyyələndirilir. Texnologiyanın inkişafının zəif olduğu dönəmlərdə inşa olunan və bu gün də memarlıq əhəmiyyətini itirməyən, gözəlliyi ilə insanları valeh edən tikililər əcdadlarımızın yaradıcılıq təxəyyülünün nə qədər geniş olduğunu təsdiqləyir. Bu qəbildən olan tikililər, eyni zamanda, məmləkətimizin inkişaf mərhələlərini əks etdirir, tariximizi yaşadır.

Hazırda Azərbaycan ən qabaqcıl şəhərsalma yanaşmalarını tətbiq etməyə çalışır, çoxsaylı beynəlxalq tərəfdaşları ilə əməkdaşlıq qurur. Son illər ərzində bu sahədə həyata keçirilən qanunvericilik islahatları isə kompleks şəkildə şəhərsalma fəaliyyətinin şəffaf, davamlı və qanunauyğun çərçivədə icrasına şərait yaradıb. Diqqət mərkəzində olan məsələlərdən biri də şəhərsalma və memarlıqda innovativ, davamlı, inklüziv inkişaf siyasətinin müasir tələblərə uyğun təşkil olunmasıdır. Şəhərlərin inklüziv, təhlükəsiz, davamlı və dayanıqlı olmasını təmin etmək üçün ölkəmizdə səmərəli icra mexanizmi formalaşdırılır.

Şəhərsalma sahəsində Azərbaycanın uğurlu fəaliyyəti beynəlxalq müstəvidə layiqincə qiymətləndirilir. İrimiqyaslı qlobal tədbirlərdən hesab edilən Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyasının (WUF13) paytaxtımızda keçirilməsi ölkədə uğurla həyata keçirilən genişmiqyaslı layihələr və əldə edilən nailiyyətlər, habelə ölkəmizin bu sahəyə verdiyi töhfələr sayəsində beynəlxalq nüfuzunun ən yüksək səviyyədə olmasının daha bir bariz nümunəsidir. Eyni zamanda, tədbirin keçirilməsi üçün Bakının məkan seçilməsinin əsas səbəblərindən biri də paytaxtımızda sosial-iqtisadi, nəqliyyat və digər infrastrukturların yüksək səviyyədə olmasıdır.

180-dən çox ölkədən onminlərlə insanın tədbirdə iştirakı Azərbaycanın beynəlxalq nüfuzunu bir daha təsdiqləyir. Yeri gəlmişkən, “Global South NGO Platform”un təşəbbüsü və təşkilatçılığı ilə WUF13-lə bağlı “Bakı Bəyannaməsi” hazırlanıb. Sənəd WUF13-də iştirak edən xarici QHT təmsilçilərinə imza üçün açıq olub. “Bakı Bəyannaməsi”ni 103 ölkədən 569 QHT təmsilçisi imzalayıb. WUF13 çərçivəsində Bakıda toplaşan vətəndaş cəmiyyəti təşkilatlarının nümayəndələri Azərbaycanı WUF13-ün uğurlu təşkilinə, beynəlxalq şəhər dialoquna və əməkdaşlığa verdiyi mühüm töhfə münasibətilə təbrik edibər. Bəyanatda qeyd olunub ki, forumun tarixində ilk dəfə keçirilən Liderlər Sammiti şəhər inkişafını yeni siyasi müstəviyə qaldıraraq, beynəlxalq gündəliyin prioritetləri sırasına daxil etdi. “Dünyanın müxtəlif yerlərində urbisid, kultursid və ekosidin təzahür etdiyi bir dövrdə Azərbaycanın postmünaqişə dövründəki bərpa və yenidənqurma təcrübəsi beynəlxalq ictimaiyyət üçün vacib metodoloji nümunədir. Bu xüsusda biz “Azərbaycan təcrübəsi”nin dünyanın postmünaqişə bölgələrinin yenidən qurulmasında beynəlxalq etalon və bu sahədə forumlarda əsas istinad kimi qəbul olunmasını təklif edirik”,-deyə vurğulanan bəyanatda bildirilib ki, WUF tarixində ilk dəfə Bakıda keçirilmiş QHT Forumu WUF prosesində vətəndaş cəmiyyətinin iştirakı üçün yeni bir mərhələdir.



Sənəddə, həmçinin diqqətə çatdırılıb ki, müxtəlif ölkələrdən 1000-dən çox QHT-ni özündə birləşdirən Qlobal Cənub QHT Platformasının (GSNP-nin) ilk Baş Assambleyasının çağırılması və rəhbərliyinin formalaşdırılması qlobal vətəndaş cəmiyyətinin institusional cəmləşməsində tarixi mərhələdir. GSNP şəbəkəsi vasitəsilə qəbul edilən bu Bəyannamə əlçatan mənzil imkanlarını və inklüziv şəhər inkişafını dəstəkləmək naminə qlobal həmrəylik aktı kimi çıxış edir. “Biz “UN Habitat”ı bu təşəbbüsü dəstəkləməyə davam etməyə, GSNP-ni WUF-un rəsmi vətəndaş cəmiyyəti tərəfdaşı kimi tanımağa və bu modeli gələcək forumların daimi komponenti etməyə çağırırıq. Uğurlu şəhər inkişafı təcrübələrini sistemləşdirmək və bölüşmək üçün Qlobal Cənub Şəhərləri üzrə Bilik Mərkəzinin yaradılmasını təklif edirik. Bakıdan bütün beynəlxalq tərəfdaşlara üz tutaraq, onları insan mərkəzli şəhər siyasətlərini dəstəkləməyə və şəhər dayanıqlığı, davamlı inkişaf və inklüziv cəmiyyətlər naminə daha əlaqələndirilmiş qlobal fəaliyyət göstərməyə çağırırıq. Qarşıdakı WUF sessiyalarının WUF13 təcrübəsinə əsaslanan birgə əməliyyat qaydalarının hazırlanması ilə bağlı Niyyət Məktubundan irəli gələrək, “Bakı Standartı”na uyğun təşkil olunmasını təşviq edirik”-deyə, bəyanatda vurğulanıb.

Qeyd edək ki, “Bakı Bəyannaməsi” “Global South NGO Platform”un (GSNP) tərəfdaşlığı və Azərbaycanın QHT Agentliyinin təşkilatçılığı ilə cari il mayın 19-da WUF tarixində ilk dəfə keçirilmiş “WUF13 NGO Forum”dan üç gün sonra qəbul edilib. 800-ə yaxın xarici və yerli QHT təmsilçilərinin iştirakı ilə baş tutmuş “WUF13 NGO Forum”dakı müzakirələrdə WUF13-də təmsil olunan yerli və xarici QHT-lərin GSNP-nin Urban qanadının formalaşdırılması təklif olunub. “WUF13 NGO Forum”un açılış mərasimində BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax bəyan edib ki, bu Forum WUF üçün tarixi hadisədir. BMT-nin Cənub-Cənub Əməkdaşlığı üzrə Ofisinin direktoru Dima Al-Katib “Global South NGO Platform”u fantastik layihə adlandırıb və bu platformanın Bakıda təsis olunmasına görə Azərbaycanı təbrik edib. “UN-Habitat”ın İdarə Heyətinin sabiq katibi Kristian Mensah GSNP-ni WUF13-də yerli və xarici QHT-lər üçün vətəndaş cəmiyyəti habı yaratması münasibətilə təbrik edib. O bildirib ki, hazırkı mürəkkəb beynəlxalq şəraitdə “Bandunq prinsipləri” yenidən aktuallıq qazanır və bu tədbir həmin prinsiplərin əməkdaşlıq çoxtərəfli tərəfdaşlıq müstəvisində təbiqinin real təzahürüdür.

**Nardar BAYRAMLI**

# "Yaşıl Enerji Dəhlizi" genişlənir...

## Azərbaycan-Gürcüstan-Türkiyə-Bolqarıstan yeni birgə şirkət təsis edib

İstanbulda Təbii Sərvətlər Zirvəsi çərçivəsində "Azərbaycan-Gürcüstan-Türkiyə-Bolqarıstan Yaşıl Enerji Dəhlizi" layihəsi üzrə nazirlərin 3-cü görüşü keçirilib. Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar, Azərbaycanın energetika naziri Pərviz Şahbazov, Gürcüstanın iqtisadiyyat naziri Mariam Kvrivişvili və Bolqarıstanın energetika nazirinin müavini Kirill Temelkovun iştirak etdiyi görüşdə "Şərq-Qərb Yaşıl Enerji Dəhlizi"nin yaradılması təşəbbüsü çərçivəsində hazırlanan "Texniki Tapşırıq" sənədi (ToR) layihəsi müzakirə olunub. "Yaşıl Elektrik Enerjisinin Ötürülməsi və Ticarəti" layihəsi çərçivəsində 4 ölkənin ötürmə sistemi operatorları (TSO) tərəfindən birgə şirkətin yaradılması barədə qərar qəbul edilib. Şirkət Azərbaycan və Gürcüstandan elektrik enerjisinin Türkiyə elektrik şəbəkəsi vasitəsilə Türkiyə və Bolqarıstana, daha sonra isə digər Avropa bazarlarına ötürülməsi ilə bağlı texniki-hüquqi məsələləri idarə edəcək.



### 2022-ci ildə təməli qoyulmuş enerji layihəsi

Qeyd edək ki, "Yaşıl Enerji Dəhlizi" layihəsi 2022-ci ildə Rumıniyada Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Sazişin imzalanması ilə ərsəyə gəlib. Dörd ölkənin imzaladığı sazişin icrasını təmin etmək məqsədilə 2024-cü ilin may ayında tərəflər arasında yeni enerji ənəkdaşlığı üzrə birgə müəssisənin yaradılmasına dair memorandum imzalanıb və "yaşıl enerji"nin ixracında tranzitlərin birləşdirilməsi və vahid kabelin yaradılması üçün hüquqi çərçivə formalaşıb. Birgə müəssisənin yaradılmasından sonra "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi"nin ("Qara dəniz" kabeli) icrasını təmin etmək üçün Rumıniyanın "Transelectrica", Azərbaycanın "Azərenerji" ASC, Gürcüstanın "Elektrik Şəbəkəsi" və Macarıstanın "MVM" şirkəti arasında da saziş imzalanıb.

"Yaşıl enerji" həmrəyliyi halqası sonrakı dövrdə daha da genişlənib və Türkiyə də bu sistemə qoşulub. Dəhlizin ayrıca seqmenti kimi Azərbaycan-Gürcüstan-Türkiyə-Bolqarıstan xətti təsis olunub. Belə ki, ötən il Bakıda keçirilən Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində "Azərbaycan Respublikasının Energetika Nazirliyi, Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyi, Türkiyə Respublikasının Energetika və Təbii Sərvətlər Nazirliyi və Bolqarıstan Respublikasının Energetika Nazirliyi arasında yaşıl elektrik enerjisinin ötürülməsi və ticarəti sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu" imzalayıb. Bu sənəd "yaşıl enerji" proqramı üzrə tərəfdaş ölkələri bir araya gətirməklə "yaşıl koalisiyanı" daha da genişləndirib.

### Cənub Qaz Dəhlizinin "yaşıl tranziti"...

Hazırda dünyada sürətli enerji keçidi həyata keçirilir. Müxtəlif regionlarda artan geosiyasi risklər və logistika dəhlizlərində qırılmalar dayanıqlı enerji təchizatında da problemlər yaradır. Bu kontekstdə qitə dövlətləri ənənəvi enerjidən alternativ enerjiyə keçid üçün strateji kurs üzrə fəallığı artırmaqdadır. Bir müddət əvvəl Avropa Komissiyası təmiz enerjiyə keçid üçün yol xəritəsini elan edib və ittifaq ölkələrini təcili addımlar atmağa çağırıb. Məhz bu baxımdan alternativ enerji marşrutu kimi əsas diqqət Mərkəzi Asiya və Xəzər bölgəsinə yönəlib.

Azərbaycan Mərkəzi Asiya-Xəzər-Avropa və yaxud "Qara dəniz kabeli" adlandırılan layihəni həm də Cənub Qaz Dəhlizində yer alan bütün ölkələrin ortaq ailəsi kimi görür və siyasəti də bu istiqamətdə irəlilədir. Bir müddət əvvəl Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası Nazirlərinin və Yaşıl Enerji Məşvərət Şurasının iclaslarında "yaşıl enerji" vacib əməkdaşlığın ən nəhəng platforması kimi dəyərləndirilib. Bu layihə çərçivəsində "yaşıl hidrogen"lə bağlı ölkələrarası dialoqun artırılması qərara alınıb. Eyni zamanda, Azərbaycan və Avropa İttifaqı daxil olmaqla 24 ölkə, 8 beynəlxalq təşkilat və 44 şirkətin təmsil olunduğu tədbirdə "yaşıl enerji" sahəsində əməkdaşlığa dair sənədlər imzalanıb.

### Türk və ərəb dövlətləri arasında vahid əlaqələndirmə

Digər türk dövlətləri - Qazaxıstan və Özbəkistan da dəhlizdə yer almaq niyyətlərini bəyan edib və enerji koalisiyası daha da böyüyüb. 2024-cü il noyabrın 13-də Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentləri İlham Əliyev, Kasım-Jomart Tokayev və Şavkat Mirziyoyevin üçtərəfli görüşü zamanı "Azərbaycan, Qazaxıstan və Özbəkistan hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Sənəd Mərkəzi Asiyanın günəş və külək elektrik stansiyalarından alınan "təmiz" elektrik enerjisinin Azərbaycan ərazisindən keçməklə Avropaya nəqli perspektivlərini nəzərdə tutur.

Yeri gəlmişkən, ərəb dövlətləri də "yaşıl enerji" koalisiyasına qoşulmağı planlaşdırır. Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri artıq xeyli müddətdir ki, Mərkəzi Asiya və Azərbaycanda "yaşıl layihələr"də təmsil olunur.

"Yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində əməkdaşlıq üzrə Azərbaycan, Qazaxıstan, Özbəkistan və Səudiyyə Ərəbistanı Krallığının energetika nazirlikləri arasında İcra Proqramı"nın imzalanması, habelə Birləşmiş Ərəb Əmirliklərinin bərpaolunan layihələrdə təmsil olunması gələcəkdə Qara dəniz-Xəzər kabeli layihəsinin Yaxın Şərq və Körfəz regionunu əhatə edəcəyini istisna etmir.

### Qarabağ və Naxçıvanı birləşdirən "yaşıl hədəflər"

"Yaşıl Enerji Dəhlizi"nin digər mühüm prioriteti işğaldan azad edilmiş ərazilərin və Naxçıvan Muxtar Respublikasının bərpaolunan güclərinin bu nəql xəttinə cəlb edilməsidir. Həmin ssenariyə əsasən, azad ərazilərdə günəş enerjisi layihəsinin icrasına dair anlaşma əldə edilib. Azərbaycan hökuməti və "Enerso Cəbrayıl" MMC, "Clean Energy Jabrayil" MMC arasında imzalanmış sazişlərə əsasən, Cəbrayıl rayonunda 50 MVt gücündə "Üfüq" Günəş Elektrik Stansiyası və 50 MVt gücündə "Şəms" Günəş Elektrik Stansiyası inşa olunacaq. Azərbaycan Energetika Nazirliyi və "Nobel Energy Limited" şirkəti arasında imzalanmış digər saziş isə Naxçıvan şəhərində 30 MVt gücündə Günəş Elektrik Stansiyasının tikintisini nəzərdə tutur. Sazişlərin icrası "Yaşıl enerji zona"sı elan edilmiş azad ərazilərdə və Naxçıvanda mövcud bərpaolunan enerjinin Xəzər-Qara dəniz kabelinə qoşulmasını təmin edəcək.

Beləliklə, təmiz enerjiyə keçidin ən etibarlı qollarından biri olan "Yaşıl Enerji Dəhlizi" böyük bir bölgəni əhatə etməklə təmiz enerjiyə keçid strategiyasının prinsiplərinə uyğun olaraq rəqabətqabiliyyətli bazarın formalaşmasına və bərpaolunan mənbələrdən elektrik enerjisinin çoxşaxəli mübadiləsini təmin edəcək. Bu baxımdan layihənin Cənubi Qafqaz-Avropa platformasından çıxaraq digər regionları da qovuşduracağı istisna deyil.

*E.CƏFƏRLİ*




# Azərbaycan-Özbəkistan iqtisadi əlaqələri dərinləşir

## Ticari-investisiya mübadilələrinin artırılması istiqamətində mühüm platformalar yaradılır

Özbəkistanın rəsmi "UZA" xəbər agentliyinin saytında dərc edilən "Özbəkistan və Azərbaycan investisiyaların cəlb edilməsi üzrə yeni mərkəz yaradır" adlı məqalədə hər iki ölkənin regionda qarşılıqlı ticarət və birbaşa sərmayələri davamlı şəkildə artırmasından bəhs edilir. Vurğulanır ki, iki türk dövləti arasında sürətlə inkişaf edən ikitərəfli münasibətlər sayəsində mühüm iqtisadi-investisiya platformaları yaradılmaqdadır. Bu fəal təşəbbüskarlığın nəticəsidir ki, 2025-ci ildə birgə layihələrin həcmi əvvəlki illə müqayisədə 20-30 faiz artıb. İstehsal zəncirlərini birləşdirmək və "Made in Central Asia" brendi üzrə sənaye mərkəzlərini yaratmaqla, hər iki ölkə həm birbaşa, həm də Mərkəzi Asiya dövlətlərinin iqtisadi inteqrasiyasına da töhfələr verir.

### Sərmayələrin qarşılıqlı təşviqi və mühafizəsi

Azərbaycan və Özbəkistan son illərdə ikitərəfli münasibətlərin inkişafı və keyfiyyətcə yeni mərhələyə çatması üçün qarşılıqlı təmasları daha da artırmaqdadır. Ölkələr arasında ticarət, iqtisadiyyat, investisiya, nəqliyyat və digər sahələrdə mühüm layihələrin həyata keçirilməsi birgə əməkdaşlığın gündəliyini daha da genişləndirib və tərəflər sərmayə təşəbbüslərini artırmaq üçün ortaq maliyyə institları yaratmaqdadır. Tərəflər arasında imzalanan "Strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında Bəyannamə", "Müttəfiqlik münasibətləri haqqında Müqavilə" və "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilənin həyata keçirilməsi üzrə 2025-2029-cu illər üçün "Yol Xəritəsi", eləcə də digər mühüm sənədlər bu istiqamətdə xüsusi əhəmiyyətə malikdir.

"Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın genişləndirilməsi haqqında" Bəyannamə və "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında sərmayələrin qarşılıqlı təşviqi və mühafizəsi haqqında" Sazişə, birgə iqtisadi təmaslar daha da güclənib. 2023-cü ilin dekabrında Özbəkistanda "Azerbaijan Uzbek İnvestment" MMC Birgə Müəssisəsi (AUİC) qeydiyyatdan keçib. Qurumun maliyyə portfeli hər iki ölkənin resurs imkanları hesabına formalaşır və iqtisadiyyatın müxtəlif sahələri üzrə fəaliyyət göstərən şirkətlərin kapitalında 49 faizədək paya sahib olmaqla biznesin maliyyələşməni təmin edəcək. Ofisi Daşkənd şəhərindəki "Trilliant Tower 1" Biznes Mərkəzində yerləşən investisiya şirkətinin nizamnamə kapitalı 500 milyon dollardır. Bu, ilkin maliyyə kapitalıdır və qarşıdakı illərdə layihələrin və iqtisadi prioritetlərə uyğun nizamnamə fondunun artırılması nəzərdə tutulur.

### Hədəf investisiya paketini 10 milyard dollara çatdırmaqdır

İki il əvvəl yaradılmış Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti isə birgə investisiyaları əlaqələndirən və həyata keçirən əsas qurumlardan biri kimi çıxış edir. Şirkətin strateji fəaliyyət istiqamətləri olduqca genişdir və sərmayələrin təşviqi üçün bütün maliyyə, investisiya, kapital fondları ilə birgə əlaqələndirici missiyanı yerinə yetirmək niyyətindədir. Şirkətin fəaliyyəti eləcə də, səhiyyə, logistika, sənaye, kənd təsərrüfatı emalı, maliyyə texnologiyaları, informasiya texnologiyaları, təhsil və enerji sahələrini əhatə edən uzunmüddətli layihələrin hazırlanmasına və dəstəklənməsinə yönəlib.

Azərbaycan və Özbəkistan ərazisində, investisiya qoyulan layihələrdə aparıcı sənaye tərəfdaşının olması şərtilə, qarşılıqlı maraq doğuran mövcud və yeni yaradılmış təsərrüfat subyektlərinin nizamnamə kapitalında minoritar payların və səhm paketlərinin, həmçinin həmin subyektlərin istiqrazlarının və digər qiymətli kağızlarının əldə edilməsi, kreditlərin ayrılması və qiymətli kağızların buraxılışı da nəzərdə tutulur ki, bu da şirkətə mühüm maliyyə institutu funksiyasının səlahiyyətlərinin verilməsi deməkdir. Eləcə də innovasiya və startap, süni zəka texnologiyaları da sərmayə təşviqlərində yer alır.

Son 2 ildə gerçəkləşmiş investisiyalar arasında "ICE+" immersion soyutma texnologiyasına əsaslanan yeni nəsil məlumat mərkəzi avadanlıqlarının lokallaşdırılması üçün "Engineering+" ilə əməkdaşlıq çərçivəsində 1,7 milyon dollarlıq layihəni qeyd etmək olar. Layihə mikroməlumat mərkəzləri və süni intellekt tətbiqləri üçün serverlərin istehsalını əhatə edir. Məhsullar Mərkəzi Asiya və Yaxın Şərqə ixrac, eləcə də daxili bazar üçün nəzərdə tutulub. "Cintana Education" və Arizona Dövlət Universiteti ilə tərəfdaşlıq çərçivəsində Daşkənddəki Amerika Texnologiya Universitetinin inkişafı üçün 2 milyon dollar ayrılıb. Bu vəsait kampusun modernləşdirilməsinə və universitetin imkanlarının gücləndirilməsinə sərf olunacaq.

İnvestisiya şirkətinin hədəfi investisiya müəssisələri və biznes dairələri arasında birgə layihələrin həyata keçirilməsi sayəsində sərmayə paketinin həcmini 10 milyard dollara çatdırmaqdır.

### Biznesmenlər Şurası yaradılır

Özbəkistan və Azərbaycan hökumətləri iki ölkənin sahibkarları arasında birbaşa əlaqələrin qurulmasına dəstək vermək, birgə investisiya layihələrini təşviq etmək məqsədilə Biznesmenlər Şurası yaratmağı da planlaşdırır. Hazırda yeni təsisatın yaradılması üçün zəruri texniki və hüquqi məsələlər həll edilməkdədir. Şura biznes nümayəndələri arasında birbaşa qarşılıqlı fəaliyyəti təmin etmək, onların üzləşdiyi texniki çətinliklərini və hüquqi məsələlərin operativ şəkildə həllinə nail olmaq, institusional dəstək göstərmək, biznes planlarının realizasiyası istiqamətlərində çevik və təsirli addım atmaq məqsədi daşıyır.

Özbəkistan və Azərbaycanda ikitərəfli və çoxtərəfli iqtisadi layihələri genişləndirməklə həm iqtisadi-ticari münasibətlərin dinanikasını, həm də qarşılıqlı sərmayə yatırımlarının məbləğini artırmaq niyyətindədir. Bu prosesdə iri şirkətlər və investisiya korporasiyaları ilə yanaşı, kiçik və orta biznes icmasının da sərmayə təşviqinə cəlb edilməsinə ehtiyac var. Bu baxımdan Biznesmenlər Şurası bu funksiyanı öz üzərinə götürərək ticarət-sənaye palataları və sahibkarlar assosiasiyalarının xətti ilə koordinasiyanı təmin edəcək, investisiya paketinin formalaşdırılma-

### Orta Dəhlizdə daşınmalar artır

Mərkəzi Asiya, Qafqaz, Aralıq və Qara dənizini birləşdirən nəqliyyat dəhlizlərində əsas coğrafi hüdudlardan biri kimi Azərbaycan və Özbəkistan mühüm yer tutur. Beynəlxalq Nəqliyyat Dəhlizində (Orta Dəhliz) hər iki ölkə daşınmaları dayanmadan artırır. 2025-ci ilin yanvar-sentyabr ayları arasında Azərbaycan vasitəsilə yük dövriyyəsi 6 faiz artımla 2,65 milyon tona çatıb. Eyni dövrdə, Bakı Limanından konteyner daşımaları 40 faiz artıb. Bu dəhliz tranzit marşrutlarını təkmilləşdirəcək, ənənəvi marşrutlardan asılılığı azaldacaq və Avropa İttifaqı, Çin və Cənubi Asiya ilə əlaqələri gücləndirəcək. Bu, regionu beynəlxalq kapital üçün daha cəlbedici edəcək və yeni sənaye sahələrinin inkişafını stimullaşdıracaq.

Ümumilikdə, Özbəkistan və Azərbaycan iqtisadi-investisiya modelləri ilə qarşılıqlı ticarət dövriyyəsinin həcmini 2030-cu ilə qədər 1 milyard dollara çatdırmağı planlaşdırır. Bu prioritet hədəfə çatmaq üçün "yaşıl enerji", sənaye və logistika sektorlarında investisiya portfelinin davamlı olaraq genişləndirilməsi, nəqliyyat dəhlizləri ilə daşınmaların həcmlərinin artırılması, yüksək ixrac potensialına malik texnoloji layihələrin icrasının sürətləndirilməsi, sənaye, infrastruktur və texnoloji inkişaf sahəsində təşəbbüslərin həyata keçirilməsinin üçün praktik həllinə nail olunması nəzərdə tutulur.

*E.CƏFƏRLİ*

# Yeni atəşkəs - 60 günə həll prosesi

## Vaşinqton və İran detalları razılaşdırır

Yaxın Şərqdə yenidən sülh perspektivi yaranıb. Belə ki, "Axios" ABŞ ilə İran arasında 60 günlük atəşkəs razılaşmasının təfərrüatlarını açıqlayıb. Bu müddət ərzində Hörmüz boğazı yenidən açılacaq və Tehran sərbəst şəkildə neft sata biləcək. Bundan əlavə, İranın nüvə proqramının məhdudlaşdırılması ilə bağlı danışıqlar aparılacaq. Nəşrin məlumatına görə, Vaşinqton və Tehran 60 gün müddətində qüvvədə olan və qarşılıqlı razılaşma ilə uzadıla bilən anlaşma memorandumu imzalayacaqlar.

**Şərtlər yenilənib**

60 gün ərzində Hörmüz boğazı rüsumsuz açılacaq və İran gəmilərin maneəsiz keçidini təmin etmək üçün boğazda qoyulmuş minaları təmizləməyə razı olacaq. Əvəzində ABŞ İran limanlarının blokadasını qaldıracaq və İrana sərbəst neft satmaq üçün bəzi güzəştlər verəcək. vurğulayıb ki, ABŞ-da qərar qəbulu prosesi ciddi institusional tərəddüdlərdən əziyyət çəkir. O, Vaşinqtonun mövqeyinin davamlı olaraq dəyişdiyini, cəmi bir neçə saat ərzində bir-birinə tamamilə zidd və ziddiyyətli nöqteyi-nəzərlərlə qarşılaşdıqlarını qeyd edib. Diplomat ABŞ-ın bu qeyri-sabit mövqeyinin istənilən danışıqlar prosesinin gedişatını pozduğunu xüsusi qeyd edib.

"The New York Times" qəzeti də yazır ki, İran və ABŞ sülh danışıqları ilə bağlı fundamental razılığa gəlsələr də, tam razılıq hələ bir neçə gün vaxt ala bilər.

**Tramp tələsməməyə çağırış edib...**

ABŞ Prezidenti Donald Tramp da İranla razılaşmanı tələsdirməməyə və "düzgün şəkildə" əldə etməyə çağırış edib. Tramp "Thruth Social"da yazıb ki, danışıqlar nizamlı və konstruktiv şəkildə da-



"Axios"-a açıqlama verən ABŞ rəsmisi bildirib ki, İran tərəfi boğazı nə qədər tez təmizləyib gəmiçiliyi bərpa etsə, blokada bir o qədər tez qaldırılacaq. O, Prezident Donald Trampın təklif etdiyi razılaşmanı əsas prinsipi kimi "uyğunluq güzəştləri"nin mahiyyətini açıqlayıb. İran dondurulmuş vəsaitlərin dərhal ayrılmasını və sanksiyaların qaldırılmasını tələb etsə də, ABŞ buna razı deyil - Vaşinqton yalnız Tehranın əhəmiyyətli güzəştlərindən sonra buna gediləcəyini deyib. Anlaşma memorandumunun layihəsinə həmçinin İranın heç vaxt nüvə silahını inkişaf etdirməmək öhdəliyi və uranı zənginləşdirmə proqramını dayandırmaq, yüksək dərəcədə zənginləşdirilmiş uran ehtiyatından imtina etmək üçün danışıqlar da daxildir. İki mənbəyə görə, iranlılar vasitəçilər vasitəsilə bu məsələdə gedə biləcəkləri güzəştləri şifahi şəkildə öhdəlik kimi götürüblər. Paralel olaraq Amerika qoşunları bölgədə 60 gün qalacaq və yalnız yekun razılaşma əldə edildiyi təqdirdə geri çəkiləcək.

**Livan müharibəsi də bitə bilər**

Anlaşma memorandumunun layihəsində həmçinin İsrail və Livanda "Hizbullah" arasında müharibənin bitməli olduğu da nəzərdə tutulur. Bununla bağlı adı çəkilməyən İsrail rəsmisi bildirib ki, İsrailin Baş naziri Binyamin Netanyahu şənbə günü Trampla telefon danışığı zamanı bu müddəa ilə bağlı narahatlığını ifadə edib. ABŞ isə qeyd edir ki, bu, "birtərəfli atəşkəs" olmayacaq: əgər "Hizbullah" yenidən silahlanmağa və ya hücum etməyə cəhd edərsə, İsrailə cavab verməyə icazə veriləcək. ABŞ bildirir ki, "əgər Hizbullah layiqli davranarsa, İsrail də layiqli davranacaq".

**İran hələ gözləyir**

Tehran da sazişlə bağlı danışıqların başa çatmaq üzrə olduğunu bildirsə də, detalların tam şəkildə İran tərəfindən təsdiqlənmədiyini önə çəkib. Səbəb isə nüvə məsələsidir - "The New York Times" qəzeti Amerika rəsmilərinə istinadən xəbər yayıb ki, Vaşinqton və Tehran arasında təklif olunan razılaşmanın əsas elementlərindən biri sonuncunun zənginləşdirilmiş uran ehtiyatlarından imtina etməsidir. Qəzetin məlumatına görə, amerikalı nümayəndələr İranın razılaşmanın ilkin mərhələsində uran ehtiyatları ilə bağlı razılaşmaya "hə" deməyəcəkləri təqdirdə danışıqları dayandıracaqlarını və hərbi kampaniyalarını davam etdirəcəklərini açıq şəkildə bildiriblər. Bu arada İran tərəfi də danışıqların hələ bitmədiyini bəyan edib. İran Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi İsmail Baqai bildirib ki, İran və ABŞ arasında yaxın vaxtlarda yekun razılaşmanın əldə olunacağını söyləmək hələlik çox erkəndir.

Sözçü müzakirə edilən mövzuların böyük bir hissəsi üzrə müəyyən ortaq məxrəcə gəldiklərini təsdiqləsə də, bunun tezliklə saziş imzalanacağı mənasına gəlmədiyini bildirib.

Baqainin sözlərinə görə, hazırda heç kəs sənədin mütləq imzalanacağı ilə bağlı qəti bəyanat verə bilməz. İran rəsmisi vam edir. "Mən nümayəndələrimə vaxt bizim tərəfimizdə olduğu müddətdə razılaşmanı tələsdirməmələri barədə məlumat verdim. Hər iki tərəfə vaxt ayırmalı və razılaşma düzgün şəkildə əldə edilməlidir. Heç bir səhv ola bilməz!", - deyə prezident yazıb.

Tramp onu da əlavə edib ki, Hörmüz boğazının blokadası razılaşma imzalanana qədər qüvvədə qalacaq. Vurğulanıb ki, ABŞ-ın İranla münasibətləri "daha peşəkar və məhsuldar" hala gəlir, lakin Tehran nüvə silahı və ya bombası inkişaf etdirə bilməyəcəyini, həmçinin əldə edə bilməyəcəyini başa düşməlidir.

**Tehranın "qırmızı xətti"...**

"Tasnim" agentliyi isə bildirir ki, İran hakimiyyəti danışıqlarda özünün "qırmızı xətt"ini müəyyənləşdirib və bunu ABŞ ilə razılaşma üçün ilkin şərt sayıb. Söhbət ölkənin dondurulmuş aktivlərinin blokdan çıxarılmasından gedir. Vaşinqton bu məsələnin nəzərdən keçirilməsini gələcək tarixə təxirə salmağı təklif edir. Qeyd olunur ki, digər vacib amil neft, neft-kimya məhsulları və onların törəmələrinə qarşı sanksiyaların ləğvidir. "Tasnim"in istinad etdiyi hesablamalara görə, digər məhsullar istisna olmaqla, təkcə xam neftin satışı Tehrana 60 gün ərzində 10 milyard dollar qazandıracaq.

Ağ Ev sanksiyaların qaldırılmasını Tehranın güzəştləri ilə əlaqələndirərək "Uran yoxdursa, pul da yoxdur" deyə bəyanat verib. Bu barədə Fox News və New York Post ABŞ prezidenti Donald Tramp administrasiyasındakı rəsmilərə istinadən məlumat veriblər. "Əgər onlar yüksək dərəcədə zənginləşdirilmiş uran təsəvvüründən uzaqlaşmasalar, heç bir real rahatlıq əldə etməyəcəklər", - deyə Ağ Ev rəsmisi jurnalistlərə bildirib. "Amma əgər onlar bizə lazım olanı təmin etsələr və prezident Trampın milli təhlükəsizlik məqsədlərinə nail olunarsa, sanksiyalar da həmin milli təhlükəsizlik məqsədlərindəki uğurlara uyğun olaraq yumşaldılacaq".

**Rubio: İran nüvə silahına sahib ola bilməz...**

"Reuters"in məlumatına görə, ABŞ Dövlət katibi Marko Rubio bildirib ki, ABŞ ya İranla yaxşı bir razılaşma əldə edəcək, ya da Tehranla "alternativ dillə" danışacaq. O qeyd edib ki, ABŞ Prezidenti Donald Tramp pis bir razılaşma əldə etməyəcək, lakin Vaşinqton digər variantları nəzərdən keçirməzdən əvvəl "diplomatiyaya hər şansı verəcək". "İranın boğazı açması və mənalı, vaxt məhdudiyyətli nüvə danışıqlarına qoşulması üçün masada etibarlı bir seçimimiz var. Ümid edirəm ki, bunu edə bilərik, sülh bağlaya bilərik", - Rubio deyib.

Rubio razılaşmanın tam uyğunluq və İran tərəfindən davamlı olaraq riayət olunması tələbi ilə irəli sürüldüyünü bildirib. O, həmçinin İranın nüvə silahına sahib olmasını mümkünsüz adlandırıb, Hörmüz boğazını qlobal gəmiçilik üçün rüsumsuz açmağa borclu olduğunu vurğulayıb.

*P.İSMAYILOV*

# Reallığı seçənlər və seçilmək üçün pul paylayanlar...

## "Güclü Ermənistan" bloku seçicilərə rüşvət verməkdə ittiham edilir

Ermənistanda seçki gərginliyi davam edir. Nikol Paşinyanın rəhbərlik etdiyi Vətəndaş Müqaviləsi Partiyası regionlarda seçicilərlə görüşlərinin qrafikini daha da sıxlaşdırıb. Buna səbəb isə digər partiyaların proqramlarını daha çox əyalətlərdəki seçicilərlə görüşlər üzərində qurmasıdır. Paşinyan və komandası revanşist maraqları dəstəkləyən partiyaların əhali arasında apardığı təbliğata qarşı antitezislər qurmaqla diqqəti cəlb edir. Qeyd edək ki, Vətəndaş Müqaviləsi Partiyasının seçki tezisləri arasında xüsusilə sülhün dəstəklənməsi, Azərbaycan ilə münasibətlərin normallaşması və Qərbə inteqrasiya kimi məsələlər ön plana çıxarılır.

### Karapetyanın ofislərində axtarış - həbs olunanlar var

Bu arada Rusiyaya bağlı olan iş adamı Samvel Karapetyanın başçılıq etdiyi "Güclü Ermənistan" blokunun ətrafında qalmaqallar daha da böyüyüb. Belə ki, mayın 25-də blokun Avan rayonundakı ofislərində axtarışlar aparılıb. Ermənistanın Korrupsiyaya Qarşı Mübarizə Komitəsindən verilən məlumatda bildirilib ki, istintaq seçki rüşvətinin verilməsi və alınması ilə bağlı açılmış cinayət işi çərçivəsində aparılır. Komitənin məlumatına görə, beş nəfər saxlanılıb. Vurğulayaq ki, Karapetyanın komandasının seçiciləri pul verilməsi və bu kimi qanun pozuntularına yol verdikləri haqda məlumatlar yeni deyil. Mayın 15-də blokun Vanadzor ofisində axtarış aparılmışdı və orada da bir çox adamlar saxlanılmışdı. Bildirilmişdi ki, seçki rüşvətxorluğuna hazırlıq və vətəndaşların seçki hüquqlarını sərbəst şəkildə həyata keçirməsinə mane olmaq iddiaları ilə bağlı cinayət araşdırmasının bir hissəsi olaraq, Ermənistan Respublikasının Lori bölgəsindəki ofislərdə də bir sıra axtarışlar və digər prosedur tədbirləri həyata keçirilib. Qeyd olunmuşdu ki, Karapetyanın rəhbərlik etdiyi blok ərazidə "Kombikorma" adı altında fəaliyyət göstərən mağazada gizli ofis təşkil edibmiş və orada da seçicilərə rüşvət verilməsi hallarına təsadüfi olunub. Həmin vaxt da axtarışlar nəticəsində həbslər həyata keçirilmişdi.

### İrəvan Aİ ilə vizasız gediş-gəlişi razılaşdırır

Ermənistan hakimiyyəti isə seçkidən sonra qələbə qazanacağı təqdirdə Avropa ilə münasibətləri daha da genişləndirəcək. Nikol Paşinyan iki il ərzində Ermənistanla Aİ arasında vizasız səyahət razılığının alındığını bəyan edib. Novosti-Armenia agentliyinin məlumatına görə, Ermənistan Avropa İttifaqı ilə vizasız səyahət məsələsini iki il ərzində həll edəcək: "Ermənistanla Aİ arasında viza liberallaşdırılması məsələsi iki il ərzində həll olunacaq. O vaxta qədər sadəcə pasportunuzu və biletinizi gətirməyi unutmayın", - deyə Paşinyan bildirib. Onun sözlərinə görə, viza gecikmələrinin səbəblərindən biri Aİ ölkələrinə səyahət edən Ermənistan vətəndaşlarının sayının artmasıdır.

"Bizə deyirlər: Aİ ilə çox yaxşı münasibətləriniz var, viza məsələsini həll edə bilmirsiniz? Bunun niyə baş verdiyini bilirsinizmi? Çünki 2018-2025-ci illər arasında Ermənistandan Aİ-yə gedən insanların sayındakı artım 500 faizdən çoxdur. Aİ ölkələrinin səfirlikləri Ermənistan vətəndaşlarının bütün müraciətlərini qəbul edə bilmir", - deyə baş nazir bildirib.

Qeyd edək ki, Ermənistan və Aİ arasında viza liberallaşdırılması dialoqu rəsmi olaraq 2024-cü ilin sentyabrında başlayıb. Aİ ekspert missiyaları Ermənistana 2025-ci ilin yazında gəlib və 5 noyabr 2025-ci ildə Avropa Komissiyası İrəvana viza liberallaşdırılması üzrə fəaliyyət planı təqdim edib.

Fəaliyyət planına dörd blokda qruplaşdırılmış 74 məcburi bənd daxildir: biometrik sənədlər, sərhəd idarəçiliyi, ictimai asayiş və insan hüquqlarının qorunması. Xüsusilə, müxtəlif pasportlar və şəxsiyyət vəsiqələri, miqrasiya siyasəti, sığınacaq, narkotik və insan alverinə qarşı mübarizə, cinayətkarlığın qarşısının alınması, korrupsiyaya qarşı mübarizə tədbirləri və insan hüquqlarının qorunması məsələlərini əhatə edir.



### Paşinyan Türkiyə və Azərbaycanla əlaqələr barədə danışdı

Mayın 24-də Nikol Paşinyan Ermənistanın Gürcüstanın Axalkalaki şəhərindən Türkiyənin Qars şəhərinə malların ixracı və idxalı üçün Aİ ilə dəmir yolu əlaqəsi qurduğunu da açıqlayıb. Ermənistanın Baş naziri bunu "ölkənin iqtisadi həyatında böyük hadisə" adlandırıb və dəmir yolunun ixrac və idxal daşımaları üçün açıq olduğunu vurğulayıb. Onun sözlərinə görə, yaxın gələcəkdə Ermənistanla Türkiyə, Ermənistanla Azərbaycan arasında dəmir yolu əlaqələrinin, daha sonra isə Ermənistandan Naxçıvan vasitəsilə İrana gedən yolun açılması gözlənilir. O, bu layihələrin həyata keçirilməsini TRIPP (Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu) nəqliyyat təşəbbüsü ilə əlaqələndirib.

### Rusiyadan "qaz təzyiqi"...

Rusiya isə Ermənistandakı seçkiləri diqqətlə izləyir. Ermənistan mediası bunu seçkidə iştirak edən bəzi qüvvələrin Rusiya tərəfindən idarə olunması ilə əlaqələndirir. Bildirilir ki, Kreml bir çox vasitələrlə İrəvana təzyiq göstərməyi planlaşdırır. Bu vasitələrdən biri isə Ermənistanın mavi yanacaqla, qazla təminatı məsələsidir. Belə ki, Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev Ermənistan hakimiyyətinin Avropa İttifaqı ilə yaxınlaşma kursunu tənqid edərək bildirib ki, İrəvan eyni vaxtda həm Avrasiya İqtisadi İttifaqına (AİI) üzvlüyündən istifadə edir, həm də Aİ ilə münasibətləri inkişaf etdirməyə çalışır. Medvedev "Maks" kanalında bildirib ki, "taburetkalar arasında oturmağa çalışanlar ağrılı şəkildə yerə yıxılmaq riski ilə üzləşirlər". Təhlükəsizlik Şurasının sədr müavininin sözlərinə görə, Ermənistan hakimiyyəti Avropa İttifaqı ilə münasibətlər dərinləşdikcə belə, Rusiya qazının cari qiymətlərini qoruyub saxlamağı planlaşdırır: "Rusiya "tərəfdaş"ı üçün cari qaz qiymətlərini - min kubmetr üçün 177,5 dolları saxlamağa borcludurmu?", - deyə o yazıb və qeyd edib ki, 2026-cı ilin may ayında Avropada qazın mübadilə qiymətləri min kubmetr üçün 570-590 dollar olub.

"Hamıya aydındır ki, əgər onlar Avropa qaz qiymətlərinə keçsələr, ölkəsinin xalqı bu oğlanı əsəbi halda birbaşa Parisdəki sevgili dostunun yayına (Fransa prezidenti Emmanuel Makron) göndərəcək ", - deyə Medvedev bildirib.

Mayın 22-də isə Rusiya Dövlət Dumasının spikeri Vyaçeslav Volodin Paşinyanın Rusiyaya qarşı siyasətini düşmənçilik adlandırmışdı. "Dövlət Duması deputatlarının fikrincə, Ermənistanın Baş naziri Paşinyan Rusiya Federasiyasına qarşı qeyri-dost siyasət yürüdür, ölkəmizin təklif etdiyi imkanlardan kinayə ilə istifadə edir", - deyə Volodin yazıb və Rusiyanın Ermənistana öz ziyanına qaz tədarük etdiyini vurğulayıb.

Rusiyanın xarici işlər naziri Sergey Lavrov isə bildirib ki, Qərb ölkələri Rusiyanın müttəfiqlərini, ilk növbədə qonşularını "parçalamağa" çalışır. "Ermənistanı "səhv məntiqə" sürükləmək üçün edilən hazırkı səylər də "Rusiyaya mümkün qədər çox zərər vurmaq" məqsədi daşıyır", - deyə Rusiya xarici işlər naziri qeyd edib.

### Mirzoyan cavab verdi...

Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan isə rusiyalı həmkarına cavab verib. O bildirib ki, İrəvan müxtəlif ölkələrlə tərəfdaşlıq münasibətlərini davam etdirir. "Biz müxtəlif ölkələrlə strateji münasibətlər də daxil olmaqla, tərəfdaşlıq münasibətlərini qoruyub saxlayır və qururuq. İkitərəfli münasibətlərimiz heç bir üçüncü ölkəyə qarşı yönəlməyib. ABŞ və Aİ ilə strateji münasibətlərimiz heç bir şəkildə Rusiyaya qarşı yönəlməyib. Gündəmlərimiz açıqdır. Biz müxtəlif sahələrdə tərəfdaşlarımızla səmərəli əməkdaşlıq edirik", - deyə Mirzoyan bildirib.

*SADİQ*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# İctimai birliyi və ünsiyyəti, sevgi və qardaşlıq əlaqələrini gücləndirir...

## Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası Qurban bayramı ilə bağlı fətva verib

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılar Şurası Qurban bayramı ilə bağlı fətva verib. Bu barədə QMİ-nin mətbuat xidmətindən məlumat verilib. Fətvada deyilir: “Bağışlayan və Mərhəmətli Allahın adı ilə!

Qarşıdan İslam aləmi və xalqımızın müqəddəs günlərindən biri, Rəbbimizin insanlığa lütf və inayətinin rəmzi olan mübarək Qurban bayramı gəlir. Bütün səmavi dinlərin əziz tutduğu, Həzrət İbrahim əleyhissalamın əhdi və Həzrət İsmayıl əleyhissalamın adı ilə bağlı bu müqəddəs gün əsrlər boyudur ki, dünyamıza ümumbəşəri birlik və insanpərvərlik mesajını çatdırır.

Müsəlman aləmi üçün əziz olan mübarək Eyd-əl-Əzha ərəfəsində Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası ənənəvi olaraq Qurban bayramına dair tövsiyələrini çatdırmağı vacib bilir:

Bildiririk ki, Qurban bayramına dair hökmlərə və şəri qaydalara əsasən, qurban kəsmək yalnız Məkkədə həcc ziyarətini icra edən zəvvarlara vacib buyurulmuşdur. Digər yerlərdə isə imkanı olan şəxslərin qurban kəsmələri sünnət əməl, Qurban ətini fəqir ailələrə paylamaq - böyük savab sayılır. Uca Allah müqəddəs Qurani-Kərimdə qurbanlığın dəyərini deyil, xeyirxah və təmiz niyyətin əhəmiyyətini vurğulayır: “Onların (qurbanların) nə əti, nə də qanı, əlbəttə, Allaha çatmaz. Ona çatan yalnız sizin təqvanızdır...” (Həcc; 37). Mübarək ayədəki ilahi hikmətə inanan hər kəs Qurban ibadətinin mahiyyətini təhrif etməkdən, bidətçi yanaşmalardan çəkinməlidir.

Adətən qurbanlıq üçün qoyuna üstünlük verilir. Lakin keçi, inək və dəvəni də qurbanlıq üçün seçmək olar. Həmin ətin bölgüsündə hər kəs azaddır, fəqət əziz Peyğəmbərimizin (s) tövsiyəsinə görə, imkansızlara yardım etmək dinimizin ruhuna daha yaxındır. Qurbankəsmə ayini təmizlik və yüksək sanitariya şəraitində, münasib yerlərdə icra edilməlidir. Şəriət qaydalarına görə, qurban kəsilən heyvan sağlam və kəsimə yararlı olmalıdır. Xəstə, arıq və qüsurlu heyvanlar qurbanlığa münasib sayılmır. Adətən müəyyən yaş həddinə çatmış heyvanlar kəsilir. Keçi və qoyunun yaşı bir il, öküz və inək iki ildən artıq, dəvənin isə beş ili tamam olmalıdır. Şəriətə görə, heyvanın üzü qibləyə uzadılaraq, Qurban niyyəti ilə Allahın adı çəkilərək kəsilməsi vacibdir. Qurbanlıq əsasən üç hissəyə bölünür: bir hissəni qurban sahibi özünə, digər hissə imkansız ailələrə, üçüncü hissəsinin isə hədiyyə kimi qohum-əqrəbaya paylanması tövsiyə olunur.

AMEA Şamaxı Astrofizika Rəsədxanasının hesablamalarına əsasən Azərbaycan üfüqündə Hilalın görünməsinə uyğun olaraq Qurban bayramı Zül-hiccə ayının 10-na - Miladi təqvimlə 27 may tarixinə təsadüf edəcəkdir. Bu il Türk Dövlətləri Təşkilatı Dini idarə rəhbərləri Şurasının 18 may 2026-cı ildə qəbul edilən yekdil fətvası ilə bayram günü 27 may tarixi kimi təsdiqlənmişdir. Şəriətə uyğun olaraq Qurban kəsimi 27 may tarixindən başlayaraq 3 gün davam edə bilər. May ayının 27-də məscidlərimizdə Bayram namazları qılınacaqdır, inşaAllah.

Azərbaycanda Qurban Bayramı günləri dövlət tərəfindən qeyri-iş günü elan edilmişdir. Dövlətimizin dindarlara olan özəl diqqətinə görə təşəkkürümüzü bildirir, milli-mənəvi dəyərlərimizin hamisi dövlət başçımız Zati-aliləri İlham Əliyev cənablarını və Birinci vitse-prezident Mehriban xanım Əliyevanı bayram münasibətilə təbrik edir, ailələrinə dindarlarımızın xeyir-dualarını yetirir, dövlət-din münasibətlərinin yüksək səviyyədə inkişafı naminə xeyirxah və səmərəli fəaliyyətlərinə uğurlar arzulayırıq.

Həzrət Peyğəmbər (s) hədisi-şəriflərinin birində buyurmuşdur: “Adəm oğlu Qurban bayramı günündə Allah üçün qurbanlıq kəsməkdən daha gözəl bir iş edə bilməz”. Bu ibadətin gözəlliyi ondan ibarətdir ki, insanı Allaha yaxınlaşdırır, təvazökarlığı, itaətkarlığı və xeyirxahlığı təlqin edir, müsəlmanlar arasında ictimai birliyi və ünsiyyəti, sevgi və qardaşlıq əlaqələrini gücləndirir. Həmrəylik, yardımlaşma və mənəvi təmizlənmə rəmzi olan bu müqəddəs bayram günlərində Vətənimiz və millətimiz üçün dualar etməliyik. Həmd olsun Allaha ki, Azərbaycan xalqı müdrik dövlət öndəri, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi ədaləti, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmişdir. Allah Vətən uğrunda canlarından keçmiş, uca şəhidlik məqamına yüksəlmiş övladlarımıza rəhmət eləsin, qəhrəman qazilərimizə şəfa bəxş etsin, şanlı ordumuzun bütün əsgər və zabitləri üçün dilədiyimiz xeyir-dualar müstəcab olsun! Uca Allah Azərbaycan dövlətini, xalqını və onun müdrik rəhbərini hər zaman müzəffər etsin!

Bu əziz bayram münasibətilə Qafqaz Müsəlmanları İdarəsi və onun rəhbərliyi Azərbaycan xalqını və bütün dünya müsəlmanlarını təbrik edir, Qurban bayramının daşıdığı mənəvi dəyərlərə həmişə sadiq qalmağı Uca Yaradandan raz-niyaz ilə diləyir. Allah-Taala dua və ibadətlərinizi qəbul etsin, Qurban bayramınız mübarək olsun! Amin!

Vəssəlamu əleykum və rəhmətullahi və bərəkatuh!”.

# Ucuz eynək baha başa gələ bilər...

## Saxta günəş eynəkləri korluğa aparır

Günəş eynəkləri sadəcə dəb və ya aksesuar deyil, eyni zamanda göz sağlamlığımızı qorumaq üçün olduqca vacib vasitələrdən biridir. Günəşdən yayılan ultrabənövşəyi şüalar uzun müddət gözlə təmasda olduqda tor qişasına, buynuz qişaya, hətta görmə keyfiyyətinə mənfi təsirlər göstərə bilir. Buna görə də eynək seçərkən yalnız görünüşə və qiymətə deyil, ilk növbədə keyfiyyət göstəricilərinə diqqət yetirilməlidir.

Bu gün eynəkləri hər yerdən almaq olar - optik mağazalardan, istənilən supermarketdən, hətta adi ərzaq dükanlarından və təsadüfi ayaqüstü “alver” edənlərdən. Qiymətlər də keyfiyyətlər kimi müxtəlifdir. Pərakəndə şəkildə satılan eynəklərin əsas hissəsi xaricdən idxal olunur. Əsas amil isə bu eynəklərin göz üçün zərərli olub-olmamasıdır. Mütəxəssislər dəfələrlə qeyd edirlər ki, saxta eynəklər sözün əsl mənasında insanı kor edə bilər. Bu, ilk vaxtlar hiss edilməsə də, fəsadı bir müddət sonra özünü büruzə verməyə başlayır.

**Katarakta yaranmasına səbəb olur**

Oftalmoloq Gündüz Məmmədli “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, hər bir istehlakçının eynəyi optik mağazalardan alması yaxşı olardı. Onun sözlərinə görə, şüşə eynəklər daha məqsədəuyğundur. Plastik eynəklər isə göz üçün ziyanlıdır. Belə eynəklər günəş şüalarının qarşısını almır, əksinə, gözün bu şüaları daha çox qəbul etməsinə “şərait” yaradır: “Keyfiyyətsiz eynəklər, həmçinin torlu qişaya zədələyici təsir göstərir. Hətta uzun müddət bu cür eynəkdən istifadə gözdə kataraktanın yaranmasına gətirib çıxarır. Keyfiyyətsiz eynəklər gözdə xəstəliklərin yaranma prosesini daha da sürətləndirir”.

**Gözdə yorğunluq, ağırlıq yaradır**



Həkimin sözlərinə görə, əldə satılan gün eynəklərinin xam maddəsi, onun nədən hazırlandığı bəlli deyil: “Bu cür eynəkləri gözdə 1-2 dəqiqədən artıq saxlayanda adamın gözündə yorğunluq, ağırlıq yaranır, göz ağrıyır. Orta səviyyəli şüşənin hazırlanması, yəni, maya dəyəri 14-15 manata başa gəlir. Eynəyin digər hissələrini də bura əlavə etdikdə, maya dəyəri 40-60 manat arasında dəyişir. Amma 5-6 manatlıq eynəyin şüşəsinin nədən hazırlandığı bəlli deyil - plastikdən hazırlanan eynəklərin xeyirdən çox ziyanı var”.

İstehlakçıların çox vaxt şüşə eynəklərə üstünlük verdiyini deyən G.Məmmədli bildirib ki, orqanik şüşəli eynəklər də keyfiyyətlidir: “Optik mağazalarda satışda olan eynəklərin 90 faizi orqanik olur, yalnız bəzi markaların istehsalı olan eynəklərin cəmi 10 faizi şüşə olur”.

**Şüşənin tündlüyü 60-70 faiz olmalıdır**

Oftalmoloq qeyd edib ki, çimərlikdə, adi günlərdə, sükan arxasında ayrı-ayrı formalı və şüşəli eynəklər taxılmalıdır: “Məsələn, sürücülər üçün eynəyin “polaroid” olması önəmlidir. “Polaroid” eynəklər bir neçə saat ərzində yolda sükan arxasında olan adamın gözlərini yormur, yolu daha aydın görməsinə səbəb olur. Buna görə də sürücülər üçün “polaroid” şüşələr məsləhətdir”.

Alıcıların adətən daha tünd şüşəli eynəklərə üstünlük verməsinə gəlincə, həkim söyləyib ki, normalda şüşənin tündlüyü 60-70 faiz olmalıdır: “Daha tünd şüşəli gözlüklər gözə zərərlidir. Hətta bir az çox taxanda göz dibinin suyunu quruda bilər”.

**Yeni eynək alanda gözdə 3-5 dəqiqə saxlanmalıdır**

G.Məmmədli bildirib ki, böyük şüşəli, üzə yaxşı oturan və gözə yaxın yerləşən eynəklər almaq məsləhətdir: “Elə eynək almaq lazımdır ki, gözün yan tərəflərindən şüalar gözlə təmasa girməsin. Bundan başqa, eynək alarkən işığa doğru tutub aşağı-yuxarı doğru oynatmaq lazımdır. Dalğalanma varsa, deməkşüşəsi keyfiyyətsizdir. Eynək alan zaman onu təxminən 3-5 dəqiqə gözdə saxlamaq məsləhətdir. Ağırlıq vermirsə, burnu və gicgahları sıxmırsa, gözdə ağırlaşmaya səbəb olmursa, bu zaman almaq olar.

Bundan başqa, eynəyi taxarkən fikir vermək lazımdır ki, ətrafdakıları öz rəngində göstərsin. Elə eynəklər var ki, ətrafdakıları olduğundan tamam fərqli rəngdə göstərir. Bu cür eynəklərin saxtalığına əmin ola bilərsiniz. Bəzi eynəklərin çərçivələri də əyri olur. Çəhrayı və narıncı rəngdə şüşəsi olan eynəklər almaq məsləhət deyil. Mavi rəngli şüşəsi olan eynəklər isə gözün Günəş şüalarını daha çox qəbul etməsinə səbəb olur”.

**Keyfiyyətli eynəkdən istifadə vacibdir**

Oftalmoloqun sözlərinə görə, keyfiyyətli gün eynəyindən istifadə gözümüzdə Günəşin yaratdığı zərərli şüalar nəticəsində erkən yaşlarda ortaya çıxa biləcək kataraktanın yaranma riskini azaldır: “Qlobal istiləşmə səbəbindən günəşli günlərin sayı və zərərli şüalar getdikcə artmaqdadır. Gözlə birbaşa təmasda olan günəş şüaları gözdə katarakta və görmə mərkəzində “sarı nöqtə” xəstəliyi kimi görməni pozan xəstəliklərə səbəb olur. Hətta bəzən korluğa da gətirib çıxara bilər. Günəş şüaları gözdə yanma, quruluq, sulanma, işıqdan narahat olma, göz qapaqlarını açmada çətinlik çəkmə kimi problemlərə də səbəb olur. Buna görə də keyfiyyətli gün eynəyindən istifadə vacibdir”.

***Yeganə BAYRAMOVA***

# Risk yüksəkdir...

Afrika Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzləri (“Africa CDC”) Konqo Demokratik Respublikasında (KDR) və Uqandada baş verən son Ebola epidemiyası səbəbindən 10 Afrika ölkəsinin yüksək risk altında olduğu və regional yayılma ilə bağlı narahatlıqların davam etdiyi barədə xəbərdarlıq edib.

AZƏRTAC xarici mediaya istinadla xəbər verir ki, “Afrika CDC”in baş direktoru Jan Kaseya onlayn brifinq zamanı yüksək riskli ölkələrə Cənubi Sudan, Ruanda, Keniya, Zambiya, Mərkəzi Afrika Respublikası, Tanzaniya, Efiopiya, Anqola, Konqo Respublikası və Burundinin daxil olduğunu bildirib.

Afrika İttifaqının ixtisaslaşmış səhiyyə orqanının məlumatına görə,

## Ebola virusu Afrikanın 10 ölkəsinə yayıla bilər

Konqo Demokratik Respublikası mayın 15-də 17-ci epidemiyanı elan etdikdən bəri həm ehtimal olunan, həm də təsdiqlənmiş olmaqla, ümumilikdə 745 yoluxma halı və Ebola ilə əlaqəli 176 ölüm hadisəsi qeydə alınıb.




Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5346**
**Sifariş: 685**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova